**BEŞİNCİ ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XI SESSİYASI İCLASININ**

# PROTOKOLU № 85

Milli Məclisin iclas salonu.
18 dekabr 2018-ci il.

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 113 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.01 dəq.) |
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Məhəbbət Vəliyeva**, Azərbaycan Respublikası təhsil nazirinin müavini.

**Fərzəli Qədirov**, Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatı rəhbərinin müavini.

**Anar Cəfərov**, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Hüquq şöbəsi müdirinin vəzifələrini icra edən.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev və Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan

və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında" Birgə Bəyanatının təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

2. "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

3. "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

4. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

7. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

8. Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

10. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

11. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

12. Azərbaycan Respublikasının Dövlət gerbi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

13. Azərbaycan Respublikasının Dövlət himni haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

14. "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

15. Ümumi təhsil haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Cavanşir Feyziyev, Fazil Mustafa, Zahid Oruc, Tahir Kərimli, Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Fəzail İbrahimli, Səməd Seyidov, Elman Nəsirov, Siyavuş Novruzov, Hikmət Məmmədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev və Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Siyavuş Novruzov, Fəzail Ağamalı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Valeh Ələsgərov, Çingiz Qənizadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**3. "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**4. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanu-**

**nunda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Fazil Mustafa

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**7. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**10. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
| Lehinə | 98 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**11. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**12. Azərbaycan Respublikasının Dövlət gerbi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli, Tahir Kərimli, Hikmət Məmmədov, Aydın Mirzəzadə, Bahar Muradova, Sahib Alıyev, Fazil Mustafa, Qənirə Paşayeva, Araz Əlizadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
| Lehinə | 100 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Dövlət himni haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişdir:** Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**14. "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**15. Ümumi təhsil haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, İsa Həbibbəyli, Tahir Kərimli, Əli Məsimli, Qüdrət Həsənquliyev, Siyavuş Novruzov, İlham Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.26 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*18 dekabr 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri. Xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 12.01 dəq.) |
|---|---|
| İştirak edir | 102 |
| Yetərsay | 83 |

Çox sağ olun. Yetərsay var. İclasımıza başlaya bilərik. Hörmətli millət vəkilləri, gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik təsdiq olundu. Yəqin bir neçə dəqiqə müzakirələr də olacaq. Ancaq müzakirədən qabaq mən istərdim ki, Avropa İttifaqı – Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin həmsədri Cavanşir Feyziyevə söz verək. Bu yaxınlarda Avropa Parlamentində Azərbaycan parlamentinin 100 illiyinə dair tədbir keçiriblər, orada qərarlar da qəbul olunub. Buyurun, Cavanşir müəllim.

**C.Feyziyev,** *Avropa İttifaqı – Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin həmsədri.*

Çox sağ olun, hörmətli cənab Sədr. Cənab Sədr, Sizin göstərişinizlə biz, Avropa İttifaqı – Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin üzvləri, keçən həftə Avropa Parlamentinə səfər etmişdik. Bu ilin Azərbaycan Xalq Cümhuriyyəti ili elan olunması ilə bağlı həm ölkəmizdə, həm də ölkəmizin hüdudlarından kənarda, demək olar ki, bütün Avropa ölkələrinin paytaxtlarında çoxsaylı tədbirlər keçirilmişdir. Sizin tapşırığınıza əsasən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin Avropa Parlamentində qeyd olunmasını təşkil etmək üçün biz nümayəndə heyətimizin üzvləri ilə Strasburq şəhərinə getmişdik və dekabr ayının 11-də həmin tədbir Avropa Parlamentində yüksək səviyyədə keçirildi. Tədbiri Avropa Parlamentinin Azərbaycan üzrə məruzəçisi, Rumıniyadan olan deputat Monika Nikolaeu idarə edirdi və tədbirdə həm komitəmizin üzvləri, həm Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri cənab Səməd Seyidov, həm də “Avronest” Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri Sahibə xanım Qafarova çox fəal şəkildə iştirak etdilər. Fürsətdən istifadə edərək, həmin tədbirdə iştirak etmiş bütün həmkarlarımıza dərin minnətdarlığımı bildirmək istəyirəm.

Məlumat vermək istəyirəm ki, həmin tədbirdə 140-dan

çox qonaq iştirak etdi. Tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında qonaqlara ətraflı məlumat verildi. Azərbaycan Xalq Cümhuriyyətinin xalqımıza dövlətçilik sahəsində bəxş etdiyi dəyərlər haqqında ətraflı məlumat verildi. Eləcə də, tədbirdən bir gün sonra, dekabr ayının 12-də Avropa Parlamentinin ilin son plenar iclası keçirilirdi və biz bu plenar iclasın gedişini izlədik. Bu plenar iclasın bizim üçün maraqlı cəhəti ondan ibarətdir ki, hər ilin son plenar iclasında Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə məruzəsi müzakirəyə çıxarılır və təsdiq olunur. Builki məruzə də Avropa Parlamentinin Xarici əlaqələr komitəsinin sədri cənab Devid Makalister tərəfindən təqdim olunmuşdu və biz bu məruzədə Azərbaycanın maraqlarının, demək olar ki, Azərbaycan tərəfinin istədiyi şəkildə, tam təmin olunduğunun şahidi olduq. Belə ki, məruzədə bütün "Şərq Tərəfdaşlığı" ölkələrinin, o cümlədən Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bir daha öz təsdiqini tapıb və "Şərq Tərəfdaşlığı" çərçivəsində əməkdaşlıq edən ölkələrdə mövcud münaqişələrin yalnız beynəlxalq hüquq prinsipləri və normaları əsasında həll olunmasının vacibliyi vurğulanmışdır.

Bildiyiniz kimi, Avropa İttifaqı ilə Azərbaycan arasında yeni əməkdaşlıq müqaviləsi üzərində iş aparılması zamanı da bunlar Azərbaycan tərəfindən qoyulan ən başlıca ilkin şərtlərdir və yalnız bu şərtlər daxilində Azərbaycan Avropa İttifaqı ilə yeni əməkdaşlıq müqaviləsini imzalamağa razılıq vermişdir. Bu sessiyada həmin şərtlər, eyni zamanda, parlamentin qətnaməsində öz əksini tapdı. Eləcə də, qətnamədə "Şərq Tərəfdaşlığı" ölkələrindəki münaqişələrdən zərər çəkmiş qaçqınlara və məcburi köçkünlərə yar-

dımların göstərilməsi nəzərdə tutulur.

Bu məruzəni keçən illərdəkindən fərqləndirən ən başlıca cəhətlərdən biri də ondan ibarətdir ki, builki məruzədə xalqların öz müqəddəratını təyinetmə prinsipi haqqında, ümumiyyətlə, danışılmır və bildiyiniz kimi, keçən illərdə erməni tərəfi, yeri gəldi-gəlmədi, bu məruzələrdə həmişə öz müqəddəratını təyinetmə prinsipinin ifadə olunmasına çalışır və buna nail olunurdu. Lakin budəfəki məruzədə erməni lobbiçilərinin cəhdlərinə baxmayaraq, bu təklif 522 səs əleyhinə olmaqla rədd edildi, qəbul olunmadı. Bütün bu fəaliyyətlər Azərbaycanın apardığı müstəqil xarici siyasətin nəticəsində ortaya çıxmaqdadır. Cənab Prezidentin apardığı düşünülmüş, prinsipial, qətiyyətli xarici siyasətin nəticəsində artıq Avropa ölkələrində Azərbaycanın mövqeyini birmənalı olaraq dəstəkləməyə başlayıblar və biz hiss edirik, müşahidə edirik ki, artıq Azərbaycana qarşı ikili yanaşmalara son qoyulmaqdadır. Bütün bunların əsasında Azərbaycan Prezidentinin yorulmaz və qətiyyətli fəaliyyəti və Azərbaycan parlamentinin beynəlxalq fəaliyyəti dayanır. Diqqətinizə görə minnətdarlığımı bildirirəm.

**Sədrlik edən.** Məlumata görə çox sağ olun. Müzakirədə iştirak eləmək istəyən yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yazılın. Fazil Mustafa.

**F.Mustafa.** Hörmətli Sədr, hörmətli millət vəkilləri. Bildiyiniz kimi, dünən və bu gün Bakı şəhərinə azacıq yağış yağdı. Yağış yağan kimi Bakı şəhərində tıxaclar dərhal ciddi problemə çevrilməyə başladı. Yəni yollarda heç bir qəza, fırtına, fəlakət yox. Bəs bu tıxac problemini biz niyə həll edə bilmirik? Mənim fikrimcə, artıq bu ciddi bir məsələyə çevrilib. Əhali arasında, təbii ki, əmək haqqı-

na, pensiyaya, hansısa müavinətlərin alınmasına, işsizliyə görə müəyyən narazılıq elementləri var. Amma sizi inandırım ki, bu gün ən çox narazı kateqoriya yollarda avtomobil idarə edən, avtobusların içində çıxılmaz vəziyyətdə qalan, saatlarla gözləyən insanlardır. Bunu ortadan qaldırmaq lazımdır ki, insanlar ən azı iş yerlərinə vaxtında çata bilsinlər, vaxt itkisi böyük məsrəflərə səbəb olmasın.

Bir dəfə Henri Fordu Amerika Konqresinə dəvət edib soruşurlar ki, necə edək, Amerika Birləşmiş Ştatlarında əhalinin yarıdan çoxunun avtomobili olsun. Biz, Konqres hər cür dəstək verməyə hazırıq, deyirlər. O deyir, mənim heç bir dəstəyinizə ehtiyacım yoxdur, sadəcə, siz yolları, dayanacaqları, parklanma yerlərini düzəldin, ondan sonra bunu həll eləmək çox sadə bir məsələdir.

İndi bizdə nəqliyyatın intellektual idarə olunması sözü çox populyardır, vallah, nəqliyyat idarə olunur, amma intellekti görməyimiz mümkün deyil. Çünki diqqət edirsinizsə, xüsusilə metro tikintisinin ləngiməsi son vaxtlar, demək olar ki, dayanması vəziyyəti daha da pisləşdirib. Digər tərəfdən, dünyanın heç bir yerində ictimai nəqliyyatın yolu tutmasının şahidi olmuruq. Azərbaycanda isə avtobuslar yolu tuturlar.

Bu gün İstanbul kimi ən böyük metropol şəhərdə insanlar ən çox metrobuslardan, bir də metrodan istifadə edirlər. Maşınlarını qoyurlar parklanma yerinə və ictimai nəqliyyatdan istifadə edirlər. Niyə, çünki metrobusun yolu ayrıdır, digər avtomobillərin yolu ilə qarışmır və bunu həll ediblər.

Biz ictimai nəqliyyat sektorunu qaydaya sala bilməmişik. Biz, deyək ki, insanların gələcək tələbatını nəzərə almadan metro sahəsində tikintiləri dayandırdığımıza görə çox böyük bir məsuliyyətin altına girmişik. Heç olmasa,

bu yolların tənzimlənməsi məsələsini geniş səviyyədə bir cəmiyyətin müzakirəsinə çıxarmaq lazımdır, hansı yol tapaq ki, bu problem ortadan qalxsın.

Adamın yol polisinə yazığı gəlir, saatlarla yağışın altında qalır, kiçik bir yağış yağan kimi ölkədə yollar iflic olur. Ona görə mən diqqəti bu məsələyə çəkdim ki, əgər mütəxəssis yoxdursa, xaricdən gətirək. Qrenlandiyadan, Avstraliyadan, haradansa bu sahənin mütəxəssisi olan bir adam gətirək ki, bunu idarə eləsin. Belə olmaz axı. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc.

**Z.Oruc.** Hörmətli cənab Sədr, hörmətli həmkarlar. Mən də hesab edirəm ki, dekabrın 12-də Avropa Parlamentində qəbul olunmuş qətnamə Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirir. Xüsusilə də nəzərə alsaq ki, Avropa İttifaqı ilə Ermənistan arasındakı münasibətlər bir sıra illüziyalar yaratmışdı. Onlar hesab edirdilər, erməni dostları klubu, komissiyaları ki o məkanda yaradılıbdır, bunların hesabına ölkəmiz əleyhinə doğmalar və ögeylər kimi bir tendensiya formalaşdıracaqlar və Moldovadan, Gürcüstandan, Ukraynadan fərqli olaraq biz hər zaman ərazi bütövlüyümüz məsələsində sual işarəsi ilə üz-üzə qalacağıq. Ölkə rəhbərinin iradəsi, parlamentin bu müstəvidə ardıcıl işi nəticə veribdir. Bu təqdir olunur.

Cənab Sədr, 3 gün öncə Belarus Prezidenti Aleksandr Lukaşenko Rusiya kütləvi informasiya vasitələrinə böyük bir müsahibə verib, mətbuat konfransı keçirib və oradakı açıqlamalar da bizim uzun illər boyu Qarabağ məsələsi ətrafında aparılan danışıqların bağlı qapılar arxasındakı hissələrini görməyə bizə bir qədər imkan yaradıb. Lukaşenko bəyan eləyir ki, o, İrəvanda, bir daha diqqət edin, məhz İrəvanda Serj Sarkisyana Putinlə birgə həmrəylik

göstərərək təklif ediblər ki, 5 rayonun qaytarılması ilə bağlı real addımlar atsın. İfadə belədir, onsuz da həmin rayonlar boşdur, siz bu addımı atın.

Gördüyünüz kimi, bu bəyanat sübut edir ki, bağlı qapılar arxasında gedən danışıqlarda da Azərbaycanın mövqeyi üstünlük təşkil etməkdədir. Digər yandan, Rusiya rəhbərliyi bu ərazilərin işğal olunduğunu qəbul eləyir. Üçüncüsü, kollektiv təhlükəsizlik çətiri altında uzun illər gizlənməyə çalışan bir dövlət orada Qazaxıstanın, Belarusun haqlı olaraq Azərbaycanın mövqeyindən çıxış elədiyini görür. Bu çox təqdir olunan bir hadisədir. Hesab edirəm, hərbi məsələlərdə, yəni silah satışında da Rusiya ilə, yaxud Belarusla Ermənistan arasındakı münasibətlərin soyuqlaşması, pisləşməsi Azərbaycan dövlət başçısının bu illər ərzində ən yaxın qonşular ilə düzgün siyasət apardığını göstərir və əslində, xarici siyasət kursunun mənası da bundan ibarətdir ki, sən düşmən saydığın dövləti ən yaxın müttəfiqlərindən məhrum edəsən.

Görün, indi iş nə yerə çatıb ki, Lavrov Ermənistanda xarici qoşunların ola bilməməsi haqqında Paşinyandan qarantiya almaq istəyir. Bu həm də sübut edir ki, proseslər nə cür inkişaf edə bilər. Amma Ermənistan “biz bu əraziləri Azərbaycana qaytarsaq, onlar Qarabağı da ermənisiz Qarabağ şəklində almaq istəyəcəklər” deyə qorxularını bəyan edir. Bütün bunları söyləməkdə məqsədim ondan ibarətdir ki, Azərbaycanın bu illər ərzində siyasəti düzgün olub. Bütün media məkanı bu mövqeləri tirajlamalıdır, təbliğat bunun üzərində qurulmalıdır və dövlətimizin siyasətini təqdir eləməlidir. Sağ olun.

**Sədrlik edən.** Tahir Kərimli.

**T.Kərimli.** Sağ olun. Hörmətli Sədr, hörmətli deputatlar. Mən də Cavanşir müəllimin və onun komandasının

apardığı faydalı işə görə təşəkkür edirəm. Bu, nailiyyətimizdir. Eyni zamanda, başqa bir məsələyə toxunmaq istəyirəm.

Arada Mətbuat Şurası haqqında hələ hazırlanmaqda olan qanun layihəsi ilə tanış oldum. Düzdür, hələ təklif olunmayıb. Mən bunun qəbul olunmasını zəruri sayıram. Jurnalistlərin bu təklifini çox faydalı sayıram. Nəhayət, həm jurnalistin hüquqlarının müdafiəsi, həm də onların, yeri gəldikdə, cəzalandırılması mexanizmləri haqqında məsələnin qoyulmasını düz sayıram. Eyni zamanda, bu, Milli Televiziya və Radio Şurasına, onlar haqqında qanuna da aiddir. Biz heç görmürük ki, hansısa televiziyanın bir həftəliyə, 10 günə müəyyən verilişləri dayandırılsın. Söhbət ondadır ki, bizdə ciddi jurnalistlər də, burada akkreditə olunanlar da, uzun müddət tanıdıqlarım da, yeniləri də var. Onlar öz işlərinə çox vicdanla yanaşırlar. Amma bəzən, deyək ki, mən axşam da gördüm, Azərbaycan televiziyasında bizim komitə sədrlərindən biri Facebook səhifələrindəki o, həqiqətən, iyrənc işlərdən haqlı olaraq bəhs elədi.

Mənim yadıma Həsən bəy Zərdabinin bir kəlamı düşür. O, uşaqlıqdan şəxsiyyətin öldürülməsinə tənqidi yanaşırdı. Sanki bizim mətbuat, sosial şəbəkələr uşaqlarımızın şəxsiyyətini uşaqlıqdan öldürməklə məşğuldurlar. İndi bunlar azmış kimi, onun dövlətinin parlamentini, bütün rəhbərliyini, bütün məsələləri də gözdən salırlar. Elə bil, mexanizm işə salınıb. Sosial şəbəkələrə sanki bir informasiya yemi lazımdır. Bir səhv tutub, kontekstdən çıxarırlar, dəyişirlər, salırlar ağızlara, onlar da ağızlarına gələni deyirlər. İstənilən səviyyədə dövlət adamını təhqir edirlər və sair. Ona görə mənə elə gəlir, – Mətbuat Şurası haqqında qanun layihəsinin bir neçə bəndində bunu gördüm, – məsələyə baxmaq lazımdır. Abırsız-həyasız şəkildə insan-

ları pis vəziyyətə salırlar.

Biz hamımız ailə tərbiyəsi görmüşük, böyümüşük, 50-60 il yaşamışıq. Heç vaxt o sözləri eşitməmişik, görməmişik, heç valideynlərimiz uşaqlıqdan bizi küçəyə buraxmayıb ki, o sözləri eşidək. İndi gözlərimiz görür, qulaqarımız eşidir. Bizi açıq təhqir edirlər, biabır edirlər və hər birimizin təhqir olunması, eyni zamanda, bütün parlamentin, dövlətimizin də nüfuzunun aşağı salınması deməkdir. Necə ki, Əli Həsənov öz müsahibəsində bu məsələyə toxunub. Ona görə mən hesab edirəm ki, bu məsələlərə son qoymaqdan ötrü bir mexanizm hazırlanmalıdır. Qanun layihəsini təqdir edirəm. Dünən bir alim çıxış edib jurnalistlərə deyirdi ki, lap iyirmi dəfə də olsa, bir şeyi yoxlayın, sonra verin. Təəssüf edirəm ki, bunu bəzən eləmirlər. Hətta spikerin adından verilmiş "Əhliman müəllim, dərmanların dozası artıq oldu" sözləri ilə bağlı deyirlər ki, Tahir Kərimlinin dərmanının dozası artıq oldu. Mən ömrümdə bir siqaret çəkə bilmirəm. Bu nə sözdür mənə deyilir?

**Sədrlik edən.** Oldu, sağ olun. Mən bu məsələyə rəy bildirmək istəmirəm. Fikirlərini söylədin. Amma bir şey demək istəyirəm. Həqiqətən, burada, Milli Məclisdə keçirdiyimiz iclasda bizim deputatlar çıxış edirlər, – Milli Məclisdə akkreditə olunmuş jurnalistlər məndən inciməsinlər, – bəzən onların çıxışlarını, bəzi sözləri kontekstdən çıxarıb, qəzetlərdə başqa fikir yazırlar. Xahiş edirəm, hörmətli jurnalistlər, bu məsələdə bir az diqqətli olun. Siz Milli Məclisdə işləyirsiniz, burada akkreditə olunmusunuz, burada deyilən sözləri deyildiyi kimi verin. Sözü, cümləni kontekstdən çıxarmaq lazım deyil. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, cənab Sədr. Hörmətli deputat həmkarlarım, hörmətli media nümayən-

dələri. Doğrudan da, dekabrın 12-də Avropa Parlamentinin qəbul etdiyi qətnamə Azərbaycan diplomatiyasının böyük uğurudur, qələbəsidir. Biz indiyə qədər müşahidə edirdik ki, keçmiş sovet respublikalarındakı bu tipli münaqişələrlə bağlı həmişə Gürcüstanın, Moldovanın, Ukraynanın ərazi bütövlüyü tanınırdı və münaqişənin yalnız bu dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll olunması qeyd olunurdu. Amma Azərbaycanla bağlı isə bizə deyirdilər ki, gedin Ermənistanla dil tapın, danışın. Sizin razılaşdığınız variantı biz də müdafiə edəcəyik, dəstəkləyəcəyik. Bununla da dolayısı ilə Ermənistanı dəstəkləyirdilər. Amma ilk dəfədir ki, Avropa Parlamenti qərar qəbul eləyib ki, Dağlıq Qarabağ münaqişəsi də yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna bilər. Bu qətnamənin qəbul olunmasında, sözsüz ki, Azərbaycan parlamentinin də rolu çox böyükdür. Mən həm də deputat həmkarım Cavanşir Feyziyevə öz fəaliyyətinə görə təşəkkür edirəm.

Hörmətli Zahid müəllim burada qeyd elədi, doğrudan da, son vaxtlar Azərbaycan diplomatiyasının ikinci bir qələbəsi ondan ibarətdir ki, Ermənistan özünün hətta müttəfiqləri arasında belə təklənib, öz nüfuzunu itirib. Lukaşenkonun da mətbuata verdiyi açıqlamalar bunun bir daha təsdiqi idi. Hesab edirəm ki, Azərbaycan tərəfi təzyiqləri artırmalıdır və 2019-cu il Dağlıq Qarabağın azad olunması ili olmalıdır. Yəni biz 2019-cu ili bu istiqamətdə ciddi qərarların qəbul olunması ili kimi görməliyik. Mən hesab edirəm, doğrudan da, Azərbaycan hökuməti artıq Ermənistana təzyiqləri ciddi şəkildə artırmalıdır və əgər 2019-cu ildə Ermənistan güzəştə getməyəcəksə, Azərbaycan ordusu, nəhayət ki, öz gücündən istifadə eləməlidir. Azərbaycan güc yolu ilə öz ərazi bütövlüyünü bərpa eləməlidir.

Bu barədə artıq Minsk qrupunun həmsədrləri də məlumatlandırılmalıdır və onlardan da tələb olunmalıdır ki, artıq torpaqlarımızın işğaldan azad olunması üçün onlar da öz qəti sözlərini söyləsinlər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı.

**F.Ağamalı**. Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli həmkarlar, hörmətli media təmsilçiləri. Təbii ki, mən də hesab edirəm ki, Avropa Parlamentinin Avropa İttifaqı ilə tərəfdaş olan ölkələr haqqında, daha doğrusu, burada baş verən və davam etməkdə olan münaqişələrlə bağlı ədalətli mövqeyi, heç şübhəsiz ki, Azərbaycan dövlətinin, xüsusi olaraq ölkə başçısı cənab İlham Əliyevin xarici siyasətinin uğurlu məntiqinə söykənir. Bu qətnamənin qəbul edilməsində parlamentimizin, heç şübhəsiz ki, Oqtay müəllim, Sizin rəhbərliyiniz altında parlament qrupumuzun Avropa Parlamentindəki fəaliyyətini də yüksək qiymətləndirmək lazımdır və mən yüksək də qiymətləndirirəm. Onlara bundan sonra da bu cür səmərəli və yüksək səviyyəli fəaliyyətlərində uğurlar diləyirəm.

Hörmətli cənab Sədr, bildiyimiz kimi, son vaxtlar ayrı-ayrı sosial şəbəkələrdə Azərbaycana qarşı yenə də böhtan, qərəz, təhqir dolu fikirlər ifadə olunmaqdadır. Avropada yerləşən anti-Azərbaycan qüvvələr tərəfindən, eyni zamanda, ən müxtəlif layihələrlə Azərbaycanın bəzi gənclərinin beyinlərinin yuyulması hesabına, kosmopolit qüvvələrin, gənclərin anti-Azərbaycan mövqeyi ilə bərabər, antimilli münasibətləri də ortadadır. Dövlət başçısı, onun ailəsi, ayrı-ayrı məmurlar, deputatlar, ziyalılar, vətənpərvər qüvvələr, xüsusi olaraq müqəddəs şəhidlərimiz təhqir olunur. Əlbəttə, bütün bunlara qarşı mən düşünürəm ki, Azərbaycanın dövlət təhlükəsizliyində mühüm rol oynayan bizim dəyərli hüquq mühafizə orqanlarımız artıq

ciddi hərəkətə keçməlidir. Bu cür insanlara qarşı Azərbaycan qanunları çərçivəsində konkret və ciddi addımlar atılmalıdır.

Digər tərəfdən, Azərbaycan gənclərinin beynini yumaq məqsədilə Azərbaycanda ən müxtəlif qrantlarla, müxtəlif adlar altında keçirilən bu və ya digər seminarların, konfransların təşkilinə, onun həyata keçirilməsinə də xüsusi nəzarət etmək lazımdır. Gürcüstanda, dünyanın ayrı-ayrı yerlərində keçirilən bu cür seminarlara gedən insanlar eyni şəkildə hüquq mühafizə orqanlarının xüsusi filtrindən keçirilməlidir. Bunlar əgər bu və ya digər şəkildə anti-Azərbaycan mövqeyində durub erməni məqsədlərinə, informasiya müharibəsində ermənilərə xidmət edirlərsə, onların qarşısı qəti şəkildə alınmalıdır. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fəzail İbrahimli.

**F.İbrahimli**. Hörmətli cənab Sədr, hörmətli həmkarlarım və mətbuat nümayəndələri. Mən bir məsələni gündəmə gətirmək fikrinə düşdüm. Çünki bu, baş verən epizodik bir hadisə deyil, bütövlükdə Azərbaycanın geosiyasi mövqeyi, böyük dövlətlərin Azərbaycana marağı, bu maraqlar altında gizlənən məkrli niyyətlərin müxtəlif formada həyata keçirilməsidir. Ola bilər, müəyyən düşüncələr yaranar ki, bunu Milli Məclisin tribunasından demək nə dərəcədə vacib idi? Söhbət Mübariz İbrahimovun – Milli Qəhrəmanımızın haqqındakı düşüncədən gedir.

Birincisi, mən mətbuatda fikirlərimi demişəm. Ancaq Mübariz İbrahimovun valideynləri, qohum-əqrəbası məhz seçildiyim dairədə yaşadıqları üçün bu məsələni gündəmə gətirməyi mən həm də özümə mənəvi borc bildim. Qoy, bu fikirlər Milli Məclisin stenoqramına daxil olub, tarixə çevrilsin. Gələcək nəsillərimiz bu tarixi vərəqləyib bu

sətirləri görəndə Cəlil Məmmədquluzadənin "Ölülər" əsərində işlətdiyi bir fikri söyləyəcəklər. Mən onu demək istəmirəm.

Hər birimiz bilirik ki, fəlsəfədə bir qanun var – səbəb və nəticə. Nəticə məlumdur, milli ruhumuza hücumdur. Milli qəhrəmanlarımıza hücumdur. Xalqın bütövlükdə tarixinə hücumdur, erməni təəssübkeşliyidir. Bu nəticədir. Səbəb nədən ibarətdir? Mənim düşüncəmə görə, burada 3 amil həlledici rol oynayır. Birincisi, bu xanımı, bu duyğusal psixoloqu danışdıran genetik kodun diktəsidir. Genetik kod hökm eləyir, öz dayılarının təəssübkeşi kimi çıxış edir. İkincisi, bu psixoloqun, görünür, psixiatra ehtiyacı var. Düşüncələrində, qafasında müəyyən problem yaranıb, bu da yoxlanılıb nəticə çıxarılmalıdır. Üçüncüsü isə, Azərbaycana qarşı mənhus fikirlər, iti caynaqlar uzanır ki, ayrı-ayrı adamları ələ keçirib bizim dövlətimizə, dövlətçiliyimizə qarşı xüsusi hazırlasın. Bunun ağuşuna düşə bilər. Bunların hamısına baxmayaraq, hər birinin çarəsi var. Güman edirəm ki, belə adamlara qarşı ictimai qınaq xüsusi rol oynamalıdır. Hüquq mühafizə orqanları hansı addımı atacaq? Aldığım məlumata görə, o, məhkəməyə verilib. Amma bu hərəkət yerində qınağa çevrilməlidir. Qoy, buna qoşulanlar, bu ruhda düşünənlər, belə yolda gedənlər bir dərs çıxarsın, görsün ki, cəmiyyət tərəfindən çox böyük qınaq mənbəyinə çevrilir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, hörmətli Fəzail müəllim. Mən mətbuatda bütün bu məsələləri izləmişəm, xalqımızın, insanların bu məsələyə göstərdiyi hiddətin şahidi olmuşam. Sosial şəbəkələrdə bunun hamısı əksini tapıb. Milli qəhrəmanımıza münasibət də göründü. Ona görə belə cılız məsələni Milli Məclisin iclasına çıxarmaq, Milli Məclisdə

danışmaq, o şəxsi bir az da tanıtmaq – mən bunun tamamilə əleyhinəyəm. Bu adam heç institut da bitirməyib, onun psixoloq olmasına isə illər lazımdır. Nəyə görə biz bu haqda danışmalıyıq? Millətə, xalqa məlum oldu ki, bu kimdir, nəçidir, nədir. Ona görə, sonra çıxış eləyənlərdən də xahiş edirəm, bu məsələ üzərində çox dayanmayaq. O xanımın cavabını sosial şəbəkələrdə xalq, insanlar verdi. Çox xahiş edirəm. Səməd Seyidov.

**S.Seyidov**. Hörmətli Oqtay müəllim, hörmətli həmkarlar. Mənim həmkarlarım artıq qeyd etdilər, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi adından Avropa Parlamentində bizim işçi qrupunun gördüyü işlər haqqında mən də bir-iki kəlmə demək istəyirəm. Doğrudan da, sözün əsil mənasında, bu, çox vacib və gözlənilən bir nəticə idi. Bilirsiniz, beynəlxalq təşkilatlarda Azərbaycana qarşı çox hiyləgər bir siyasət aparılır. O siyasətin mahiyyəti bundan ibarətdir ki, onlar gündəmi dəyişdirmək istəyirlər. Gündəmi dəyişdirməyin məqsədi isə Dağlıq Qarabağ, Azərbaycanın ərazi bütövlüyü, Azərbaycanın beynəlxalq qanunlar çərçivəsində davranışına xələl gətirmək, onu başqa məsələlərlə – insan haqları, korrupsiya və sair məsələlər ilə əvəz etmək. Bizim ən vacib məsələmiz, millətimizin ən ağrılı problemi – Dağlıq Qarabağ məsələsi bu gün Avropanın ən nüfuzlu, ən güclü təsiretmə imkanına malik və Avropa üçün istiqaməti müəyyən edən təşkilatı olan Avropa Parlamentinin qəbul etdiyi sənəddə birmənalı öz əksini tapmışdır.

Əziz dostlar, burada bir neçə nəticə var ki, bunu mütləq parlamentdə səsləndirməliyik. Cəmi iki il bundan əvvəl Avropa Parlamenti Azərbaycana qarşı ağlasığmaz dərəcədə mənfi bir qətnamə qəbul etmişdir. Sonra Azərbaycanla əlaqələri bərpa etmək üçün özləri gəldilər, xahiş

etdilər. Birincisi, Azərbaycan parlamentinin, Azərbaycan iqtidarının mütəşəkkil, ardıcıl, məntiqli işi, ikincisi isə, parlamentin beynəlxalq əlaqələrlə bağlı çox səmərəli, işgüzar, bir-birimizə dəstək formasında həyata keçirilən fəaliyyəti, bax, belə bir gözəl nəticə verdi. Bunun məntiqi nəticəsi ondan ibarətdir ki, birgə təşkil olunmuş, parlamentin rəhbərliyi altında aparılmış, dövlət tərəfindən dəstəklənən iş mütləq uğurla nəticələnəcək.

Cavanşir müəllim bir az təvazökarlıq elədi, 140-dan çox adam həmin tədbirdə iştirak edib. 140-dan çox adam, təsəvvür edin, demək olar ki, Avropa Parlamentinin böyük bir hissəsi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı məsələyə münasibət bildirmişdir. Ona görə, bu nöqteyi-nəzərdən xahiş edirəm ki, belə bir məsələni xüsusi bir...

**Sədrlik edən.** Çox sağ olun. Mən bir məsələni çox qısa demək istəyirəm. Bütün bu nəticələrin bir səbəbi var, mən bir səbəbi görürəm. Avropa İttifaqı ilə, beynəlxalq təşkilatlarla aparılan işlərin uğuru cənab Prezidentin ortaya qoyduğu prinsipial mövqedir. "Şərq Tərəfdaşlığı"nda Azərbaycan yeganə ölkə oldu ki, heç hara tələsmədi, müqaviləyə təcili qol çəkilməsinə getmədi. Bütün bu müqavilələr Azərbaycanın maraqları, mövqeləri qorunaraq addımbaaddım işlənilir, hələ bu günə kimi də qol çəkilməyib. İndi nəticələri də görürük. Cənab Prezidentin apardığı siyasət öz nəticələrini verir. İnanırıq ki, yaxın zamanlarda Avropa İttifaqı tərəfindən münasibət də bilinəcək. Ona görə mən bir daha sizin hamınızı təbrik edirəm. Bu, çox gözəl bir nailiyyət idi. İnanırıq ki, gələcəkdə belə nailiyyətlər daha çox olacaq. Çox sağ olun. Elman Nəsirov.

**E.Nəsirov**. Hörmətli Sədr, hörmətli millət vəkilləri! Cənab Sədr, mən də Sizin o sözünüzə qoşularaq, ona qüv-

vət verərək söyləyirəm ki, həqiqətən də, qazanılmış nailiyyətlər, eyni zamanda, son nailiyyət birbaşa dövlətimizin başçısının yeritdiyi məqsədyönlü, sistemli, məntiqli siyasətin təntənəsidir. Biz də ona şahidlik edirik. Amma, eyni zamanda, bu qələbəmiz Azərbaycanın əleyhinə olan antimilli qüvvələri, milli dönükləri son günlər xeyli fəallaşdırıb və onların həqarətlə, söyüşlə, iftira ilə dolu fəaliyyəti bir qədər də genişlənib.

Hesab edirəm, bu kontekstdə biz millət vəkilləri də bu məsələyə münasibət bildirməliyik. Çünki Avropada biz bu nailiyyətləri əldə edirik, bu uğurlara imza atırıq və eyni zamanda, Avropada bu gün Azərbaycan əleyhinə sığınacaq tapmış, ermənipərəst qüvvələrin əlində alət olan milli dönüklər, satqınlar da məhz Avropa paytaxtlarından dövlətimiz, onun konstitusion quruluşu, dövlətçiliyi əleyhinə, dövlətçiliyin, konstitusion quruluşun devrilməsi ilə bağlı bəyanatlar verirlər. Bu, artıq birbaşa cinayət əməlidir. Hesab edirəm ki, belə qüvvələrə, mən qüvvə də deməzdim, belə ünsürlərə qarşı hər birimiz mövqe bildirməliyik. Xüsusilə onların əsas hədəfində həm də Azərbaycan parlamentidir. Onlar parlamentin rəhbərindən, müavinlərindən tutmuş, bütün parlament üzvlərini, ailəsini, uşaqlarını tənqid etmirlər, birbaşa təhqir edirlər. Onların leksikonu elədir ki, ümumiyyətlə, hesab edirəm, onlar mənəviyyatını itirmiş, hətta insan deməyə dil gəlməyən ünsürlərdir.

Xüsusilə hesab edirəm, Azərbaycan Respublikası Prezidentinin İctimai siyasi məsələlər üzrə köməkçisi cənab Əli Həsənovun son mövqeyi hər birimiz üçün həm də siqnaldır ki, biz mövqe bildirməliyik. Çünki bu ünsürlər hesab edirlər ki, biz onların səviyyəsinə enmədikcə, həm də guya ki, biz susuruq və bununla onlar daha da fəallaşmağa başlayırlar. Mənim bu məsələlərlə bağlı mövqeyim

belədir ki, ilk növbədə bu insanlar ictimai qınaq obyekti olmalıdır. Bu insanların heç salamını almaq lazım deyil. Heç belə insanların toyuna, yasına getmək lazım deyil. Eyni zamanda, belə insanlar qanun qarşısında cavabdehlik daşımalıdırlar. Bilməlidirlər ki, onların dövlət, dövlətin rəhbəri, onun ailəsi əleyhinə, bütövlükdə, Azərbaycan xalqı əleyhinə belə söyüşlə, hədyanla, yalanla, təhqirlə dolu sözləri, mövqeləri cinayət tərkibi yaradır. Bu insanlar qanun qarşısında cavab verməlidirlər. Hesab edirəm ki, bizim millət vəkilləri öz qətiyyətli...

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli Oqtay müəllim, hörmətli deputatlar! Mən də həmkarlarımın dediklərinə qoşuluram. Təbii ki, Azərbaycanın uğurları artdıqca, Azərbaycanı gözü götürməyən bəzi qüvvələr, erməni lobbisi tərəfindən maliyyələşənlər Azərbaycan əleyhinə fikirlər söyləyirlər.

Oqtay müəllim, Siz qeyd elədiniz ki, Milli Məclis belə məsələləri danışmağın yeri deyil. Biz addımımızı geri qoyduqca, bunlar bir az da buradakıların üzərinə gəlirlər. Demək olar ki, o kanallarda, o saytlarda bu gün dövlət quruculuğunda, ölkənin inkişafında, təhlükəsizliyin, ictimai-siyasi sabitliyin qorunmasında az-çox aparıcı olan şəxslər dövlətimizin baş qurucusu, ümummilli lider haqqında olmazın təhqiramiz ifadələr işlədirlər. Biz niyə susmalıyıq? Biz niyə onların cavabını verməməliyik? Bir qrup hesab edir ki, biz onların səviyyəsinə düşməməliyik. Bu mahnını 20 ildir mən bu parlamentdə eşidirəm. Söz demək istəmir, ona görə də bu bəhanə ilə sözün altından çıxmağa çalışır. Burada oturan deputatların hər birini təhqir edirlər. Orada üç adamın, beş adamın adı yazılmayıb ki, elə bu beş adam onlara cavab verməlidir. Hesab edirəm ki, ziyalısı

da, alimi də, akademiki də, professoru da, sıravi deputatı da onların cavabını verməlidir. Öz dövlətini, dövlət başçısını, Prezidentini, ümummilli liderini qorumalıdır. Biz buraxmışıq bunları başlı-başına. Bunlar nə milli azadlıq hərəkatında, nə Azərbaycanın torpaqlarının müdafiəsi uğrunda gedən döyüşlərdə, nə də xalqın taleyüklü məsələlərinin birində iştirak ediblər. Heç bir yerdə olmayıblar. Nə ictimai-siyasi həyatda olublar, nə də bir siyasi partiyanın tərkibində fəaliyyət göstəriblər. Müxtəlif adlarla, fikirlərlə aradan çıxıb, gedib oturublar xaricdə, oradan-buradan pul alıb Azərbaycan haqqında belə təxribatçı işlər aparırlar.

Mən buradan hüquq mühafizə orqanlarına üzümü tuturam. Bir aylıq monitorinq aparın, qoyun xaricin aidiyyəti strukturlarının qarşısına, sual verin ki, sizin ölkənizdə dövlət çevrilişinə çağırış olsaydı, silahlanmaqla əlaqədar fikir söylənilsəydi, dövlət başçılarını təhqir etsəydilər, – özü də tənqid yox, ən qatı təhqirdən söhbət gedir, – və digər bu kimi hallar olsa idi, nə edərdiniz? Bir kəs bir məqalə yazır, gecə ilə onu Fransada, Almaniyada həbs edirlər ki, bunun yazısında dövlət əleyhinə nəsə çağırışlar var. Azərbaycan əleyhinə bu qədər çağırışlar var, oturublar orada, bəsləyirsiniz onları. Hüquq mühafizə orqanları da İnterpola konkret olaraq bu insanlarla bağlı sənədlər təqdim etməlidir.

Oqtay müəllim, bir dəqiqə, xahiş edirəm, əgər vaxt varsa.

**Sədrlik edən.** Bir dəqiqə artırın.

**S.Novruzov**. Hüquqi-demokratik mübarizədən söhbət gedirsə, gəlin hüquqi-demokratik mübarizə aparın. Azərbaycanda kifayət qədər siyasi partiyalar var ki, bu gün fəaliyyət göstərir, qanun çərçivəsində mitinqini də keçirir, fikrini də söyləyir və liderləri də bu gün oturub Azərbaycanda fəaliyyətini davam elətdirir. Əgər sən demokratik

mübarizə yolunu seçmisənsə, demokratik mübarizənin yolu budur. Antidemokratik mübarizənin yolu isə hüquq mühafizə orqanlarından keçir. Mən hesab edirəm, bu məsələ ciddi şəkildə həll olunmalıdır və yekunlaşmalıdır ki, başqaları da bunlara qoşulmasın. Ona görə konkret addımlar atılmalıdır. Deputatlardan da xahiş edirəm, hər kəs konkret fikrini bildirsin, heç kim deməsin ki, bu mənim səviyyəmə uyğun deyil, məndən aşağıdır. Hamımızı təhqir edirlər. Ölkəni təhqir edirsə, bu bütün millət vəkillərinə təhqirdir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sonuncu müzakirə iştirakçısı. Hikmət Məmmədov.

**H.Məmmədov**. Hörmətli Sədr, hörmətli millət vəkilləri. Mən də düşünürəm ki, Avropa Parlamentinin qəbul etdiyi qərar indiki mürəkkəb beynəlxalq münasibətlər sistemində Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması ilə bağlı yeni şərtlər formalaşdırır və heç şübhəsiz ki, bu, Azərbaycanın həyata keçirdiyi dərin strateji diplomatiya sayəsində mümkün olubdur. Ona görə də Azərbaycan Prezidenti deyir ki, bəzən bizim üzv olmadığımız beynəlxalq, regional təşkilatlarda belə Ermənistanın üzv olmasına baxmayaraq, Azərbaycan onlardan qat-qat nüfuzludur.

İkinci məsələyə mən toxunmaq istəyirəm. Sosial şəbəkələrdən danışıldı. Bu hadisə, sadəcə, epizodik, təsadüfən baş verən hadisə deyil. Hazırda biz yeni sosium dövründə yaşayırıq və bu cəmiyyətə informasiya cəmiyyəti deyirlər. Çox təəssüf ki, real, sosial həyatdan kənarda yeni bir virtual ictimai münasibətlər sistemi formalaşıbdır. Biz, sadəcə, buna virtual ictimai münasibətlər sistemi deyib, keçə bilərik. Ancaq belə deyil, çünki bu, real həyatımızın keyfiyyətini də, onun istiqamətlərini də müəyyənləşdirən

bir məkandır. Ona görə buradakı ictimai münasibətlərin də mütləq hüquqi müstəvidə tənzimlənməsi bugünkü reallıqdır, aktualdır və çox vacibdir. İndiki mərhələdə biz neyləyə bilərik? Heç şübhəsiz ki, bunu məhdudlaşdıra bilmərik. Ancaq bunun hüquqla tənzimlənməsi üçün müəyyən addımlar atılmalıdır. Məsələn, Almaniya Federativ Respublikasında bununla bağlı qanun qəbul edilibdir. Amma birbaşa sosial şəbəkələrlə bağlı olmasa da, federal qanunların sosial şəbəkələrdə qorunması ilə bağlı xüsusi polis, xüsusi təhqiqat qrupları yaradılıbdır. Mən düşünürəm ki, Azərbaycanda, nəhayət, polis orqanlarında kibercinayətkarlığa qarşı xüsusi qrupların yaradılması və buna qarşı sosial şəbəkələrdə mübarizə aparılması vacibdir.

Hər hansı hadisə baş verəndə mütləq lazım deyil ki, kim isə şikayətçi olsun, kim isə mütləq ictimai vəkil kimi çıxış edərək hüquq mühafizə orqanlarından bu hadisə ilə bağlı tədbir görülməsini tələb etsin. Mən düşünürəm ki, bizim çox hörmətli, nüfuzlu hüquq mühafizə orqanlarımız var. Onlar bu cür hadisələrlə bağlı ictimai sifariş gözləmədən dərhal tədbirlər görməlidir. Ən qorxulu məsələ odur ki, informasiya yeni insan növü formalaşdırır. Yəni bu yeni insan növü artıq milli dəyərlər üzərindən identifikasiya olunan insan növü deyil. Bu, istehlak getdiyi informasiya üzərindən özünü identifikasiya edən fərdlərdir ki, bir yeni sosial baza yaradır. Ona görə də bütün bunları nəzərə alaraq, mən düşünürəm ki, Azərbaycanda sistemli şəkildə və strateji müstəvidə addımlar atılmalıdır. Amma indiki mərhələdə sosial şəbəkələrdə hüquqi münasibətləri tənzimləmək üçün hüquq mühafizə orqanları mütləq xüsusi qruplar yaratmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, müzakirələri sona çatdırdıq. Gündəliyimizdə 15 məsələ var. Gündəliyin 1-ci və

2-ci məsələləri bəyanat və beynəlxalq sazişdir. Birinci məsələ. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanatının təsdiq edilməsi barədə qanun layihəsi. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Bilirsiniz ki, cənab Prezident İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında bu ilin sentyabr ayında Bakıda çox möhtəşəm bir görüş keçirildi. Bu görüş prosesində bir daha vurğulandı ki, Azərbaycan və Rusiya arasında əməkdaşlıq bütün sahələrdə strateji xarakter daşıyır və hər iki ölkənin milli maraqlarına cavab verir. İmzalanan bəyanatda aşağıdakı məsələlər diqqətə çəkilir. Hər iki prezident hesab edirlər ki, ticari-iqtisadi və investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün ticarətdə daha əlverişli şəraitin yaradılması, intellektual nəqliyyat sistemləri texnlogiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan–Rusiya hissələrində tranzit-nəqliyyat potensialının artırılması, milli iqtisadiyyatın və ixracın perspektiv sahələrində şaxələndirilməsi və innovativ inkişaf sahəsindəki məsələlərin həlli üçün birgə istehsalın yaradılması, dövlət idarəçiliyi sahəsində innovativ yanaşmaların, o cümlədən büdcə-vergi sahəsində müasir, rəqəmsal texnologiyaların tətbiqi üzrə qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsi, dövlət sektorunda istifadə üçün qabaqcıl proqram təminatının tətbiqi üzrə təcrübə mübadiləsi və əməkdaşlıq, gənclər siyasəti, təhsil, idman və turizm daxil olmaqla humanitar sahədə əməkdaşlığın genişləndirilməsi

vacibdir. Hər iki dövlət başçısı əmindirlər ki, nəzərdə tutulmuş istiqamətlər bundan sonra da inkişaf edəcək və Azərbaycan–Rusiya arasında əməkdaşlıq ölkələrimizin iqtisadi təhlükəsizliyinin artmasına, bir sıra beynəlxalq problemlərin həllinə imkan verəcəkdir. Hesab edirəm ki, millət vəkilləri bu bəyanatı dəstəkləyəcəklər. Millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Sədr. Mən də dəstək verirəm, hər iki bəyanat, doğrudan da, çox aktual və lazımi bəyanatlardır. Təkcə bir məsələni qeyd etmək lazımdır ki, 2018-ci ildə Azərbaycan və Rusiya prezidentləri arasında 6 dəfə şəxsi görüş olubdur və bunun özü çox böyük göstəricidir. Yəni ümumi götürdükdə, demək olar ki, iki aydan bir prezidentlər bir-biri ilə görüşübdür. Ölkələrarası münasibətlərin daha da yaxınlaşması, iqtisadiyyatın inkişaf etməsi, iqtisadi əlaqələrin daha yaxşı qurulması, nəqliyyat, diplomatik əlaqələrin inkişafı ilə bağlı xeyli irəliləyiş artıq göz qabağındadır. Bu gün təkcə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Rusiya dövlətinin, oradakı siyasətçilərin böyük əksəriyyətinin mövqeyi bu görüşlərin nəticəsinin bariz bir nümunəsidir. Artıq hər şey Azərbaycanın haqq işinə xidmət edir. Mən hesab edirəm, biz bu həssas münasibətlərə istər parlament üzvü, istərsə də ictimai-siyasi fəaliyyətlə məşğul olan şəxslər kimi daim diqqət yetirməliyik və çalışmalıyıq ki, bu münasibətlər daha da yaxşılaşsın, yaxınlaşsın və inkişaf etsin. Bu məsələlərə hər kəs öz töhfəsini verməlidir. Necə ki cənab Prezident bu addımları atır, hesab edirəm, digər şəxslər də bu addımları, bu istiqaməti davam elətdirməlidir.

Bizim qonşularımız ilə münasibətlərimiz yaxşı olma-

lıdır, yüksək səviyyədə inkişaf etməlidir. Təbii ki, Ermənistanı çıxmaq şərti ilə, digər qonşularla münasibətlər düzgün qurulmalıdır. Amma əfsuslar olsun ki, bəzən görürsən, müəyyən adamlar Azərbaycan–Rusiya münasibətlərindən öz şəxsi mənafeyi naminə istifadə etməyə çalışırlar. Bunların böyük əksəriyyəti Rusiyada olanlar, orada fəaliyyət göstərənlərdir. Dövlət başçısının, ölkənin, parlamentin apardığı müəyyən ictimai-siyasi işləri, dostluq münasibətlərini öz adlarına çıxmağa çalışırlar. Halbuki bu adamlar barmağı barmaq üstünə qoymayıblar. İndiyə qədər heç bir iş görməyiblər və ancaq Azərbaycanın ayrı-ayrı mətbuat orqanlarına müsahibə verməklə özlərini bir qəhrəman kimi təqdim etmək istəyirlər. Biri var, heç tanımıram, professordur, nədir? Gündə gəlir "Yeni Müsavat" qəzetinə yarım səhifəlik bir müsahibə verir, gedir. Ay, Rusiya ilə mən bunu belə etdim. Burada oturan bir nəfəri şahid göstərsin ki, indiyə qədər Rusiya mətbuatında, Rusiya saytlarında, Rusiya televiziyasında bu adamın Dağlıq Qarabağla, Xocalı ilə əlaqədar yarım sətirlik bir yazısı çıxıbdır. Deyir, hüquq professorudur, guya cinayət hüququndan yazır. Harada yazıb bilinmir, hələ məlum deyil. Amma bu, öz yerində, Azərbaycan ictimaiyyətinə Xocalı ilə, azərbaycanlıların Ermənistandan didərgin salınması ilə, başqa-başqa məsələlərlə bağlı bir səhifə, bir sətir yazısını göstərsin. Azərbaycan ictimaiyyəti də görsün ki, doğrudan da, bu, Azərbaycanın işlərinə yarayır. Azərbaycan diasporasının qeydiyyata alınmamasının günahını Azərbaycan parlamentinin üzərinə atır. Deyir, Azərbaycan parlamentində bir neçə nəfər danışdı, ona görə diasporanı qeydə almadılar, mən qeydiyyata aldırtdım. Bu adam üç ildir insanların başının altına yastıq qoyur, başdan-ayağa yalan danışır. Heç bir işlə, əməllə də məşğul olmur.

Azərbaycan nümayəndə heyəti, parlamentin dostluq qrupu, Əli müəllim, Mixail Zabelin, digərləri dəfələrlə qruplar şəklində getdilər, onların parlamentində, Ədliyyə Nazirliyində, ayrı-ayrı strukturlarda görüş keçirdilər. Bu məsələ müzakirə olundu. Bəs sən harada idin, hansı işlə məşğul olurdun? İki dəfə Azərbaycanda deputatlığa namizədliyini vermisən, üç səs ala bilməmisən. Budur göstərici. İndi gəlib olub ağsaqqal, "Yeni Müsavat" qəzetində iki səhifə yazı verib və başlayıb Azərbaycan parlamentinin üzvlərinə ki, onlar mənim fəaliyyətimi bilmirlər. Azərbaycan parlamentinin üzvləri hər kəsin fəaliyyətini bilir, görür və qiymətləndirir. Bu gün Rusiya, Rusiya Prezidenti ilə ən yaxın dostluq münasibətləri dövlət başçısı ilədir. Ən yaxşı əlaqələr iki dövlət, iki parlament, iki xalq arasındadır. Orada kim isə su bulandırmağa cəhd göstərməsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı.

**F.Ağamalı.** Təşəkkür edirəm. Cənab Sədr, hörmətli millət vəkilləri. Ölkə Prezidentinin Rusiyaya son rəsmi səfəri və orada imzalanmış 20-dən çox sənəd Azərbaycanla Rusiya arasındakı münasibətlərin yüksək səviyyədə olduğunun ifadəsidir və göstəricisidir. Mən də deyiləni bir daha təsdiq edirəm ki, ölkə Prezidenti cənab İlham Əliyev ilə Rusiya Prezidenti cənab Putin arasında yüksək münasibətlər, heç şübhəsiz ki, dövlətlərimiz arasındakı münasibətlərdə ciddi və həlledici rol oynayır. Bunun da əsasını, təməlini vaxtilə ulu öndərimiz Heydər Əliyev qoymuşdur və həmin siyasət bu təməl üzərində çox böyük uğurla davam etməkdədir.

Ölkə Prezidentinin Azərbaycanın qonşuları ilə dostluq, qarşılıqlı anlaşma və bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə, beynəlxalq hüquq normalarına söykənən siya-

səti ciddi nəticələrini verməkdədir. Azərbaycanın təkcə Rusiya ilə deyil, bəlli olduğu kimi, eyni zamanda, Belarusiya, Ukrayna, Orta Asiya respublikaları ilə də münasibətləri çox yüksək səviyyədədir. Bu münasibətlər, mən deyərdim ki, həm də parlamentlərimiz arasında yüksək səviyyədə qurulmaqdadır. Türkdilli Dövlətlərin Parlament Assambleyası bu gün artıq bir siyasi klub kimi özünü təsdiq edibdir. Eyni zamanda, Azərbaycan parlamenti ilə Rusiya parlamenti arasında dostluq qrupunun rəhbəri, hörmətli həmkarım Əli Hüseynlinin də fəaliyyəti göz qabağındadır. Rusiya–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin də fəaliyyəti müsbət mənada qiymətləndirilməlidir, bunlar çox yaxşı, əlbəttə, çox önəmlidir.

Hörmətli həmkarlar, biz Rusiyadan nə gözləyirik? Biz Rusiyadan Azərbaycanın Rusiyaya olan səmimi münasibətlərinin cavabını gözləyirik. Bu cavabın bir konkret xətti var. Ermənistana qarşı yardımları dayandır, Ermənistana silahlar verməkdə davam etmə, eyni zamanda, Ermənistana ən güzəştli şərtlərlə kreditlər vermə. Hörmətli Rusiya, Rusiya dövləti, sən bilirsən ki, Ermənistan işğalçı ölkədir. Lütfən, Minsk qrupunun həmsədri kimi öz iradəni ortalığa qoy. Axı, tarix, hadisələrin gedişi göstərdi ki, Ermənistandan daha çox Azərbaycan sizə ən sadiq dostdur. Ölkə Prezidenti ən müxtəlif layihələrdə, ən müxtəlif səviyyələrdə bunu təsdiq edib. Ona görə də mən bir millət vəkili kimi Rusiyadan bunu gözləyirəm və ümidvaram ki, Rusiya, nəhayət, Ermənistanın riyakar, ikiüzlü, mənəviyyatsız siyasətindən nəticə çıxarıb özünün obyektiv mövqeyini ortaya qoyacaq və bir dövlət kimi, işğal olunmuş torpaqlarımızın azad olunmasına özünün töhfəsini verəcəkdir. Sağ olun.

**Sədrlik edən.** Ay əzizlərim, mən sözünüzü kəsmək istəmirəm. Biz bu bəyanatı təsdiq edirik. Bəyanat da elə

Azərbaycan–Rusiya münasibətlərinin nə qədər yüksək səviyyədə olmasının göstəricisidir. Hər bəyanatla bağlı biz bu qədər çıxış etsək, hara gəlib çıxacaq? Xahiş edirəm, gündəliyin birinci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin ikinci məsələsi "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsi ilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsidir. Buyursun Valeh Ələsgərov.

**V.Ələsgərov,** *Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Təşəkkür edirəm, cənab Sədr. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Milli Məclisin müzakirəsinə "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsi ilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi təqdim edilmişdir. Xatırladım ki, adı çəkilən saziş 2018-ci il sentyabrın 1-də Rusiya Federasiyasının Soçi şəhərində imzalanmışdır. Bu sazişin imzalanmasında

məqsəd bir tərəfin ərazisindən o biri tərəfin ərazisinə tərəflərin təsərrüfat subyektləri arasında olan razılaşmalar əsasında elektrikötürücü xətlər ilə elektrik enerjisi, boru kəmərləri ilə neft və ya təbii qaz tərəflərin gömrük sərhədlərindən keçiriləndə keçirilən malların ölçülməsini, bununla əlaqədar tərəflərin müvafiq qurumları tərəfindən yığılan gömrük rüsumlarının, vergilərin və digər yığımların dəqiq hesablanmasını və ödənilməsini, məlumat mübadiləsinin daha səmərəli şəkildə təşkil edilməsini təmin etməkdir. Məqsəd bundan ibarətdir.

Əminəm ki, deputat həmkarlarım "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsini dəstəkləyib, lehinə səs verəcəklər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çingiz Qənizadə.

**Ç.Qənizadə.** Təşəkkür edirəm, cənab Sədr. Mən, əslində, bəyanatla bağlı fikir bildirmək istəyirdim, amma icazə verirsinizsə, fikrimi bildirim.

**Sədrlik edən.** Bəyanatla bağlı bitirdik. Ona görə soruşdum. Yəqin, yadından çıxıb, adın orada qalıb. Xahiş edirəm, gündəliyin ikinci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti bir neçə məsələmizin hamısı üçüncü oxunuşdur. Üçüncü məsələ "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, üçüncü oxunuş. Əli Hüseynli buyursun.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, cənab Sədr. Bu məsələni birinci və ikinci oxunuşda geniş müzakirə etmişik, təklif daxil olmamışdır. Üçüncü oxunuşda səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin dördüncü məsələsi "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanununda dəyişiklik edilməsi barədədir. Bu da, üçüncü oxunuşdur. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Cənab Sədr, bu məsələ ilə də bağlı təkliflər daxil olmamışdır, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---:|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin beşinci və altıncı məsələləri bir zərfdə gəlmişdir, bunlar da üçüncü oxunuşdur. Gündəliyin beşinci məsələsi, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında və gündəliyin altıncı məsələsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələridir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Çox sağ olun, cənab Sədr. Sizin qeyd etdiyiniz kimi, bu layihələr bir-biri ilə üzvü surətdə bağlıdır. Layihənin birinci hissəsi mənzil-tikinti kooperativləri ilə bağlı idi. Bu sahə ilə bağlı millət vəkillərinin birbaşa layihəyə aid olmasa da, Mənzil Məcəlləsinin təkmilləşdirilməsi ilə bağlı təklifləri olmuşdu, onlara gələcəkdə baxıla bilər. Bu qanun layihəsindən irəli gələrək İnzibati Xətalar Məcəlləsində dəyişikliklə Mənzil Məcəlləsinin pozulmasına görə məsuliyyət müəyyən edildi. Burada da heç bir mübahisəli məsələ olmamışdı. Millət vəkillərindən səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Mübahisəli məsələ olmadı, ancaq üçüncü oxunuşda Fazil Mustafa söz istəyir. Buyur.

**F.Mustafa.** Təşəkkür edirəm, Oqtay müəllim. Mən, təbii ki, səs verəcəyəm, üçüncü oxunuşdur. Çıxışa müzakirəyə qoşulma məqsədi ilə yazılmadım. Söhbət başqa bir

məsələdən gedir. Heç olmasa bu, gələcəkdə nəzərə alınsın və bu, yaxın vaxtlarda olmalıdır. Bildiyiniz kimi, Tikinti Məcəlləsinə görə ölkə ərazisində yaşayış və qeyri-yaşayış sahələrinin tikintisi ilə bağlı ərazilər 12 kateqoriyaya bölünür və ilk 4 kateqoriya da Bakı şəhərinə aid edilir. Bu mənzillərdə hər bir mülkiyyətçi özü istədiyi qiyməti qoyur. Kateqoriyaya baxmadan, biri 60, o biri 70, digəri 40, dördüncü 30 manat qiymət qoyur. Bir dərəbəylik hökm sürür. Biz indi qanunvericilikdə yazdıq, "özəl" sözünü dəyişib "xüsusi mülkiyyət" etdik. Bununla mülkiyyətin mahiyyətinə münasibət yenə də dəyişmir.

Biz xüsusi mülkiyyəti təsdiq edirik, qüvvədə qalır, amma Azərbaycanda mənzillərdə yaşayanların 70 faizinin xüsusi mülkiyyət hüququ yoxdur. Yaşayırlar, amma sənəd yoxdur. Ona görə də biz tezliklə bu məsələnin üzərinə qayıtmalıyıq ki, bu sahədəki dərəbəyliyi ortadan qaldırmaq mümkün olsun. Ya da Tarif Şurasına tapşırılsın. Gələcəkdə buna baxmaq olar. Tarif Şurası Bakı şəhərində olan 4 kateqoriyanın hər biri üzrə qiymətlərin maksimum səviyyəsini müəyyən etsin. Qarajların qiymətlərini müəyyən etsin. Qarajlar birində 50, o birində 30, digərində 15 min manatdır. Belə sistemsizlik olmaz.

Ona görə də biz qanun qəbul edəndə bir də ona qayıtmayaq deyə, məncə, bu kimi xırda detalları belə indidən nəzərə almalıyıq ki, vətəndaşın problemi yüngülləşsin. Nədir məsələ? Tarif Şurası müəyyən etsin ki, birinci kateqoriya 40, ikinci 30, üçüncü 20 manatı keçməməlidir. Hər halda mən şərti rəqəmləri səsləndirirəm. Bununla da bu mübahisələrə son qoyulsun. Bir də binanı tikənlərin özləri bina tikiləndən sonra qiymət qoyub oradan gəlir götürməklə məşğuldurlar. Halbuki, binanı orada yaşayan vətəndaşların ümumi yığıncağına təhvil verməlidirlər. Bu qa-

nunun təsdiqinə xüsusi nəzarət mexanizmi var. Burada biz qəbul etdik, yaxşıdır, müəyyən aydınlıq gətirilir. Amma real həyatda bunu tətbiq etmədikcə, bu sahədə hələ problemlər qalacaq. Baxarsınız, biz yenidən haradasa 2–3 aydan sonra zərurət duyacağıq ki, məsələni yeni bir layihə ilə gündəmə gətirək və müzakirə edək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, gündəliyin 5-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 6-cı məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 7-ci məsələsi. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Cənab Sədr, bu layihə uyğunlaşdırma xarakteri daşıyır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
| --- | --- |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

8-ci məsələ. Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə. O da üçüncü oxunuşdur. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Cənab Sədr, bu layihə də uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, Seçki Məcəlləsinin 2016-cı ildə referendumda dəyişiklik edilmiş Konstitusiyaya və "Normativ hüququ aktlar haqqında" Qanuna uyğunlaşdırılması ilə bağlı idi. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, üçüncü oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| --- | --- |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 9-cu məsələsi. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi, üçüncü oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Hörmətli həmkarlar, "Dərman vasitələri haqqında" Qanunun tələblərinə uyğun olaraq İnzibati Xətalar Məcəlləsində məsuliyyət nəzərdə tutulurdu. Təkliflər daxil olmamışdı. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini **Ziyafət Əsgərov** sədrlik edir*

**Sədrlik edən.** Qəbul edildi, sağ olun. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! Üçüncü oxunuş üçün qanun layihəsi ilə əlaqədar heç bir təklif daxil olmamışdır. Ona görə millət vəkillərindən qanun layihəsinə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi, üçüncü oxunuş. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, biz birinci, ikinci oxunuşlarda kifayət qədər ətraflı müzakirə etmişik. Üçüncü oxunuşla əlaqədar heç bir təklif daxil olmamışdır. Ona görə millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Əgər başqa təklif yoxdursa, buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. Azərbaycan Respublikasının Dövlət gerbi haqqında qanun layihəsi, birinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Ziyafət müəllim, həm 12-ci, həm də 13-cü məsələ Dövlət gerbi və Dövlət himni haqqında qanun layihələri bizim komitə tərəfindən təqdim olunur. Məlumat üçün demək istəyirəm ki, bu layihələr quruluşca çox oxşardır və icazə versəniz, hər ikisi ilə bağlı məlumat verərdim. Məncə, məhz bizim komitə təqdim etdiyinə və müzakirələr də tam açıq olduğuna görə, millət vəkillərinin istənilən təkliflərini həm Milli Məclisdə, həm də iclasdan sonra işçi qaydasında da nəzərə almağa hazırıq.

Hörmətli həmkarlar, bildiyiniz kimi, bizim hazırda Dövlət bayrağından istifadə qaydaları haqqında xüsusi qanunumuz mövcuddur. Dövlət himni haqqında və Dövlət gerbi haqqında qanun layihələrimiz isə mövcud deyildi. Bilirsiniz ki, Milli Məclisin 2018-ci il 2 noyabr tarixli iclasında "Azərbaycan Respublikası Dövlət himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Konstitusiya Qanunu qəbul olundu. Elə həmin vaxt da "Azərbaycan Respublikası Dövlət gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Konstitusiya Qanunu qəbul olundu. Hər iki Konstitusiya qanununu ilə artıq bizim qarşımızda belə bir vəzifə qoyuldu ki, Dövlət himni haqqında və Dövlət gerbi haqqında qanunlar da işlənib hazırlansın. İndiyə qədər bu məsələlər 1993-cü il "Dövlət himni haqqında" Əsasnamə və "Dövlət gerbi haqqında" Əsasnamə ilə tənzimlənirdi. Təxminən 25 ildir bu məsələlər Əsasnamələr ilə tənzimlənir. Sizin diqqətinizə isə məhz bu zəruriyyət, yəni "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunun tələbləri və həm Dövlət himni, həm də Dövlət gerbi ilə bağlı Konstitusiya qanunlarının tələblərindən irəli gələrək komitə və aparatın dəstəyi, köməkliyi ilə 2 layihə işlənib hazırlanmış və sizə təqdim olunmuşdur. Mən bu barədə

nə üçün geniş məlumat verdim? Bu gün biz bu qanun layihələrinin konseptual olaraq müzakirəsini həyata keçiririk. Demək istəyirəm ki, Konstitusiya qanunları və "Normativ hüquqi aktlar haqqında" Qanun bizim üzərimizə vəzifə qoyub ki, biz xüsusi olaraq Dövlət himni haqqında, Dövlət gerbi haqqında qanunlar qəbul edək. Biz də bunu işləyib, hazırlayıb sizə təqdim etmişik.

Bilirəm ki, tanış olmusunuz. Görürsünüz ki, çox lakonik qanun layihələridir. Həm Dövlət himni, həm Dövlət gerbi haqqında qanun layihələri 9 maddədən ibarətdir. Layihələrin quruluşları da kifayət qədər oxşardır. Birinci layihədə ümumi normalar, Dövlət himnin ifadə olunduğu hallar, Dövlət himnini ifadə edilməsinə, oxunmasına, dinlənməsinə və istifadəsinə dair tələblər, Dövlət himni ilə əlaqədar məhdudiyyətlər və qanunun pozulmasına görə məsuliyyət müəyyən edilmişdir. Eyni ilə də Dövlət gerbi haqqında. İkinci layihədə Dövlət gerbinin qabarıq rəngli təsvirinin vurulduğu yerlər xüsusi olaraq göstərilmiş, Dövlət gerbinin təsvirinin istifadə qaydaları, Dövlət gerbi ilə bağlı məhdudiyyətlər və qanunun pozulmasına görə məsuliyyət müəyyən edilmişdir. Bir daha vurğulamaq istəyirəm ki, həm Dövlət gerbi, həm də Dövlət himni haqqında qanun layihələri qanunvericilik texnikası baxımından kifayət qədər oxşardır. Əlbəttə ki, millət vəkillərinin layihə ilə bağlı deyəcəyi hər hansı fikri, təklif edəcəyi yanaşmanı hər iki qanuna tətbiq etmək mümkündür. Əminəm ki, parlament, həmkarlarım bu layihələri dəstəkləyəcək və biz bu qanunları qəbul etsək, həm Dövlət bayrağından istifadə qaydaları, həm də Dövlət gerbi, Dövlət himni haqqında qanunlarımız da Konstitusiyanın tələblərinə tam uyğun olacaqdır.

Hörmətli həmkarlar, bir daha vurğulamaq istəyirəm ki,

layihələr müzakirə üçün tam açıqdır. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvlərinin bir sıra əhəmiyyətli təklifləri olmuşdur. İşçi qrupu tərəfindən onlar nəzərə alınıb. Mən bu barədə ikinci oxunuş zamanı bizim komitənin üzvlərinə də məlumat verəcəyəm. Amma sizə təqdim olunmuş layihələr ilkin variantdır. Bunu da nəzərə almağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim, təşəkkür edirəm. İndi qanun layihələrinin müzakirələrinə başlayırıq. Birinci oxunuş. Əli müəllim artıq qeyd etdi, mən də təklif edirəm ki, biz hər iki qanun layihəsini birlikdə müzakirə edək, səsverməni ayrıca apararıq. Etiraz yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, xahiş edirəm. Tahir Kərimli.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli deputatlar, hörmətli mətbuat nümayəndələri! Öncədən deyim ki, doğrudan da, qanun layihələri yaxşı hazırlanıb. Mən də onlara səs verəcəyəm. Xüsusən komitə iclasında dediklərimiz də müəyyən qədər nəzərə alınıb. Ümumiyyətlə, konkret maddələrə keçməzdən əvvəl qeyd etmək istəyirəm ki, himn barədə müzakirələr şəxsən mənim əleyhimə olsa da, cəmiyyətə xeyirli oldu. Həm parlamentdə, həm də başqa yerlərdə maarifçilik işi aparıldı, himnin mənası, mahiyyəti haqqında xalqımız daha çox məlumat əldə etdi. İndi isə istəyirəm, qanun layihəsi, Dövlət himni ilə bağlı konkret fikirlərimi deyəm.

8-ci maddədə göstərilir ki, bu qanunu pozan şəxslər İnzibati Xətalar Məcəlləsinə, Dövlət himninə hörmətsizlik edən şəxslər isə Cinayət Məcəlləsinə uyğun məsuliyyət daşıyırlar. Bu, doğrudan da, belə olmalıdır. Ancaq söhbət ondan gedir ki, Dövlət himni ilə bağlı məsuliyyət hələ Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində

yoxdur. Bildiyimiz kimi, İnzibati Xətalar Məcəlləsinin müvafiq, yəni 584-cü maddəsində ancaq Dövlət bayrağından istifadə qaydalarına görə məsuliyyət nəzərdə tutulub, gerb və himn haqqında isə yoxdur. Cinayət Məcəlləsinin 324-cü maddəsində isə bayrağa və gerbə görə məsuliyyət nəzərdə tutulub. Himnə görə yoxdur. Deməli biz, o məcəllələrə hökmən bu əlavələri, himnlə bağlı düzəlişləri etməliyik. Eyni zamanda, komitədə səsləndirdiyim kimi, təklif vermək istəyirəm ki, bu, həmin məcəllədə "Dövlət idarəçiliyi" fəslindən çıxarılıb, "Dövlətin quruculuğunun əsasları" fəslinə daxil edilməlidir. Çünki o idarəçiliklə bağlı məsələ deyil, daha çox dövlətin konstitusion quruluşuna aiddir.

İkincisi, 9.2-ci maddədə yazılıb: "Dövlət himninin xarici dövlətlərin ərazisində keçirilən təntənəli tədbirlər zamanı ifa edilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir".

Hesab edirəm bu, 6.3-cü maddədən sonraya keçirilməlidir. Çünki birincidə, 6.3-də Azərbaycan ərazisində qaydalar müəyyən edilir, bu hal isə Azərbaycanın xaricində nəzərdə tutulan hallarla bağlıdır. Yəni "Yekun müddəalar"a aid deyil.

Üçüncü, 6.3-cü maddədə göstərilir ki, Azərbaycan Respublikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayanlar Dövlət himnini ayaq üstə və sona kimi dinləməlidirlər. Mən komitə iclasında bir hadisəni yada saldım. Türkiyədə Ali Məhkəmənin 150 illiyi münasibəti ilə tədbirdə Türkiyə Prezidenti və Baş nazir iştirak edirdi, orada xarici dövlətlərdən çoxlu nümayəndələr var idi. Türkiyənin "İstiqlal marşı" çalınan zaman öz ölkəsinin Ali Məhkəməsini təmsil edən Səudiyyə şahzadəsi ayağa qalxmadı. Bu zaman Türkiyədə böyük qalmaqal yaşandı. Ona görə

də bunu zəruri hesab edirəm və bu mexanizmin üstündə durmaq istərdim.

Dördüncü, 6.2.2-ci maddənin mətnində göstərilir: "qanuna əlavə edilmiş mətninə uyğun olaraq ayaq üstdə və sona qədər oxumaq". Yəni himni mətnə uyğun olaraq oxumaq. Bu məsələnin üzərində mən xüsusi dayanmaq istəyirəm. Hörmətli deputatlar, mənim əlimdə 2 mətn var – birincisi, cənab Prezidentin təsdiq etdiyi himnin mətni, ikincisi də ondan əvvəlki. Yəni cənab Prezidentin təsdiq etdiyi, həm də təklif etdiyi mətndə "üçrəngli bayrağınla məsud yaşa" və "namusunu hifz etməyə" nəqarətlərindən biri, "Azərbaycan, Azərbaycan" mətnindən isə nəqarət sözlərinin ikisi çıxarılıb. Əgər mən mətnə görə oxuyuramsa, deməli, mətni qısaldılmış variant var. Təəssüf ki, bununla bağlı mənə çox hücumlar oldu. Amma bəziləri bilsin deyə, bunu da demək istərdim, Azərbaycan Respublikasının himni 1965-ci ildə "Azadlıq" radiosunda səsləndirilib. Çox güman ki, 1956-cı ildə Türkiyədə mühacirlər tərəfindən  xorla oxunan o mətndir, bir bəndi cəmi 56 saniyə, digəri isə 1 dəqiqədir. Bütövlükdə isə, 4 dəqiqədən yuxarı mətn var. Mətni tam oxumaq məsələlərinə gəldik, biz bilirik ki, bir sıra mətnlər çox uzundur, məsələn, tam oxusan, Marselyoza 17 dəqiqədir. Bir poemadır. Ancaq bəzən qısa oxuyurlar. Ona görə də mən düzgün hesab edirəm ki, 6.5-ci və 9.2-ci maddələrdə idman yarışlarında və xarici dövlətlərdə keçirilən tədbirlər zaman mətnin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada oxunması məsələləri qoyulub. Çünki bu həqiqi mətndən bir qədər qısa da ola bilər.

Bu məsələyə qayıtmazdan əvvəl mən bir məsələni də demək istərdim. Bu da 6.2.1-ci maddədir. Burada başqa cürdür, yazılır ki, vətəndaşlar təsdiq olunmuş musiqi və

partituraya uyğun olaraq ifa etməlidirlər. Bu doğrudur, mənim ən çox istədiyim də bu idi. Çox təəssüf ki, bizə partitura izah olunmadı və bilmədik ki, bu hansı qaydada oxunur. Nəzərinizə çatdırım ki, bəstəkar Aydın Əzimovun 1989-cu ildə aranjeman etdiyi himni biz 1992-ci ildə təsdiq etmişdik və bu, Aydın Əzimovun dediyi qaydada idi. Ancaq siz bilirsiniz ki, 2014-cü ildə Avropa oyunları öncəsi dövlət rəhbəri tərəfindən məsələ qoyuldu və himn hörmətli Aydın Əliyev və bəstəkar Aydın Abdullayev tərəfindən yenidən aranjeman olundu. İndi 2–3 saniyə olub və məni çox ittiham edirlər ki, guya bu, 4 dəqiqə deyil. Güman edirəm ki, bunu təsdiq etmişik. Ancaq mən gözəl bir məlumat almışam. Təki rəsmi olsun. Dövlət himnimiz beynəlxalq, dünya səviyyəsində yenidən aranjeman olunacaq. Mən bunu gözləyirəm. Həqiqətən, Qarabağı azad etmək istəyən bir millətin himni daha əzəmətli, daha keyfiyyətli olmalıdır.

Fürsətdən istifadə edib himnlə bağlı bir neçə məsələni də demək istəyirəm. Çünki bununla bağlı bəzi məsələlər ortaya çıxıb. Müsavat başqanı deyir ki, bunun bir hərfinə də toxunmaq olmaz. Xatırladıram ki, 1992-ci il mayın 27-də özünün səs verdiyi mətndə "Cümlə hazırıq və cümlə qadirik" sözlərindən "cümlə" sözləri çıxarılıb. Bu, "Həyat" qəzetinin 1992-ci il 28 may tarixli nömrəsində də dərc olunub. Baxmayaraq, mən o vaxt dövlət rəhbərliyinə bildirmişdim ki, "hazırız, qadiriz" nə qrammatikamıza, nə də danışıq dilimizə uyğun deyil, "hazırıq, qadirik" olsun. Alınmadı. Yəni bu ittihamları qəbul etmirəm.

Bundan başqa, Üzeyir bəyin özü "Azərbaycan, Azərbaycan" sözlərini əlavə edib, "Şanlı vətən, şanlı vətən" sözlərindən sonra himn qurtarırdı. Üzeyir bəy Yusif Vəzir Çəmənzəminlinin müraciətinə cavab olaraq "Açıq söz"

qəzetinin 1917-ci il 23 dekabr tarixli sayında, “Milli marş” məqaləsində yazırdı: “Milli bir qəsidə, yəni himn yazmaq haqqında bir müddətdir, düşünürəm. Hələlik bir “Milli marş” yazmışam ki, sözlərini burada dərc etməyi lazım bilmədim. Ancaq bu sözlərin vəzn cəhətdən düzgün olmadığı səbəbini qabaqcadan qeyd edirəm.”

Hörmətli bəstəkarımız Nailə Mirməmmədli də göstərir ki, Üzeyir Hacıbəyov “Xalq musiqisinin əsasları”nda qeyd edir ki, bu Bayatı-Şiraz üzərində yazılıb. Şəhidlərimiz üçün yazılmış marşdır. Əsgər marşı.

Üzeyir bəy özü qeyd eləyir ki, Bayatı-Şiraz qəmginlik gətirən musiqidir və bunu, əlbəttə ki, bir çoxları və mən də Heyratıya çevirmək üzərində düşünürəm. Yəni burada, 6.2-ci maddədə də həmin musiqiyə uyğunluq varsa, mən çox arzu edirəm ki, aranjeman bu qaydada getsin. Bundan çəkinmək lazım deyil. Vaxtı ilə hakim əbası təsdiq olunan zaman Amerika Birləşmiş Ştatlarından gətirdiyim hakim əbasını mən çıxıb o tribunanın qabağında əynimə geyərək hamıya nümayiş elətdirmişdim. Bax, əba bu formada olur. Düzdür, sonradan bir az dəyişikliklər oldu və sair.

İndi bu musiqini biz bilmirik, amma təəssüf, elə söyüş mexanizmini işə salıblar. Biz bu himni, müstəqilliyi gətirib bu xalqa vermişik. İstəyirik ki, kamil şəkildə verək və heç kim ondan ötrü bizi tənqid eləməkdə haqlı deyildir. Ona görə mən bir məsələni də demək istərdim. Bu, ondan ibarətdir ki, 1919-cu ildə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət mətbəəsində bu mətn “Milli marş” adı altında Camo bəyin imzası ilə təsdiq olunub və orada “hüququndan keçən əsgər” sözləri “hüququnu dərk edən əflak” kimidir. “Hər an” sözü “hərdəm”dir. “Sənə min bir məhəbbət” sözləri də əvvəl “sənə bir çox məhəbbət” şəklində olub.

Hörmətli deputatlar, onu da nəzərinizə çatdırıram ki, bugünkü rus dilindəki mətndə "qan tökməyə" sözləri çıxarılıb. Bunu mən çıxarmamışam, mən, bunu dəyişək deməmişəm. Amma elə təqdim edirlər ki, bu himnin mətninin başqası ilə dəyişilməsini guya mən təklif eləmişəm. Elə bir təklifim olmayıb. Halbuki təklif edən başqasıdır. Siyavuş Kərimi kimi görkəmli bir şəxs onu vaxtı ilə təklif edib. Bəlkə də haqlı idi. İnsanların 99 faizi elə bildi ki, mən himnin sözlərini dəyişməyi təklif etmişəm. Xoşagəlməz məsələdir. Ona görə tənqid edəndə, xahiş edirəm, obyektiv olaq. O ki qaldı himnin müəllifliyi ilə bağlı, buna mən qərar verməmişəm. Hörmətli akademik rəhmətlik Ağamusa Axundovun sədrliyi ilə komissiya yaradılıb, Milli Elmlər Akademiyasında Bəkir Nəbiyevin sədrliyi ilə iclas keçirilib. 2000-ci il mart ayının 1-də Akademiya qərar verib ki bunun müəllifi Əhməd Cavad deyil. Bunu Tahir Kərimli deməyib ki. Hər yerdə söyürlər və bunu mənə nöqsan tuturlar. Bir də bu, AXC-nin himni deyil. AXC-nin himni başqadır. Mən televiziyada həmin himni, qeyri-rəsmi himni səsləndirmişəm. Rəsmi himni...

**Sədrlik edən.** Sağ olun. Hörmətli deputatlar, bir məsələni yadınıza salmaq istəyirəm. Biz qanun layihəsini birinci oxunuşda müzakirə edirik. Biz bunu maddə-maddə ikinci oxunuşda müzakirə edəcəyik, geniş vaxtımız olacaq. Ona görə xahiş edirəm, konseptual baxımdan, qanunun fəlsəfəsi, mahiyyəti nədən ibarətdir, bu aspektdə, bu istiqamətdə fikirlərinizi söyləyəsiniz. Hikmət Məmmədov.

**H.Məmmədov.** Hörmətli sədarət, hörmətli millət vəkilləri. Doğrudan da, çox vacib qanundur, mən bu qanuna səs verəcəyəm. İndi hörmətli Ziyafət müəllim dedi, maddə-maddə növbəti iclasda müzakirə edərik, amma madam ki, söz verdiniz, mən təklifimi deyim. 6-cı maddə Dövlət

gerbinin təsvirindən istifadə qaydalarıdır. Burada Dövlət gerbinə dərin ehtiram bəsləyən hər bir şəxsin Dövlət gerbinin təsvirindən istifadə etməsi nəzərdə tutulub. Doğrudur, tam yerindədir. Ancaq kimin isə ehtiramı dərindir, yaxud sadəcə ehtiramdır, bunu müəyyən edəcək vasitə yoxdur. Ona görə də mən "dərin" sözünü buradan çıxarmağı təklif edirəm, çünki 8-ci maddədə bu qaydanı pozan şəxslərə cinayət məsuliyyəti müəyyənləşdirilir. Bu bir. İkincisi, 7-ci maddənin 2-ci bəndində yazılır ki, gerbin oturulan, ayaq basılan və natəmiz yerlərə vurulması və ya təsvir edilməsi qadağandır. Əgər mümkünsə, "natəmiz" sözünün "qeyri-münasib" sözü ilə əvəz edilməsini xahiş edirəm.

Əlbəttə, yığcam qanundur. Qaldı himn məsələsinə, hörmətli millət vəkilləri, nəzərə almaq lazımdır ki, bu himnin mətni də, musiqisi də 100 il bundan əvvəl yazılıbdır. Əgər o dövrün ədəbi dilinə, publitistikasına diqqət yetirsək, Hüseyn Caviddən Üzeyir Hacıbəyova və başqalarına qədər baxsaq, yazılan əsərlərə görəcəyik ki, o dövrün ədəbi qaydaları elədir. "Hazırız" kimi işlədilir və bu "z" normal bir şəkilçi, söz sonluğu kimi qəbul edilir. 300 ildə bəzi xalqların dili 70 faizindən çox dəyişir. 100 il bundan əvvəl yazılmış mətindir, biz onu bugünkü ədəbi dil normalarına uyğunlaşdıra bilmərik. Bu, bizə qalan çox dəyərli mirasdır. Ona görə də necə var, mətni o cür də qəbul eləməliyik. Çünki tariximizdir, ruhumuzdur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, Ziyafət müəllim. Hər iki qanunun müzakirəyə çıxarılmasını və Azərbaycanın dövlət rəmzləri olan gerb və himn haqqında qanunların qəbulunu çox düzgün hesab edirəm. Burada söhbət dövlətçiliyimizə verdiyimiz növbəti bir qiymətdən, dövlət rəmzlərimizə hörmətin, onların fəaliyyəti və münasibət məsələ-

lərinin artıq qanun səviyyəsində təsdiq edilməsindən gedir. Bizə təqdim edilən layihələrdə bütün bu məsələlər kifayət qədər dəqiq ifadə edilmişdir. Konstitusiyamıza istinad, eyni zamanda, gerbə və himnə dünya praktikasından irəli gələn münasibət məsələləri öz təsdiqini tapmışdır. Bizə təqdim edilən hər iki qanun layihəsi ilə bağlı mənim müəyyən təkliflərim var. Amma prosedur qaydalarına hörmət edərək, birinci oxunuş tələblərinə tabe oluram və hesab edirəm ki, birinci oxunuşun tələblərinə cavab verir. 2-ci oxunuşda isə, əlbəttə, artıq maddə-maddə öz təkliflərimizi verə bilərik. Mən qanun layihəsinin qəbul edilməsini təklif edirəm.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini* ***Bahar Muradova*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun, Aydın müəllim. Çox gözəl bir nümunə göstərdiniz. Sahib Alıyev.

**S.Alıyev.** Təşəkkür edirəm. Hörmətli Bahar xanım, dəyərli həmkarlar, mən də bu gün gündəliyə çıxarılan hər iki qanunu dəstəkləyirəm, onun lehinə səs verəcəyəm. Burada, az öncə həmkarlarım da qeyd etdi, həm Azərbaycan Konstitusiyasının tələbləri, həm də beynəlxalq standartlar nəzərə alınmaqla, yığcam şəkildə hazırlanmış qanunvericilik aktlarından söhbət gedir. Bəzi ölkələrin təcrübəsində, – biz ikisini birlikdə müzakirə edirik, – ümumiyyətlə, dövlət rəmzləri haqqında ayrıca qanun var ki, o qanun çərçivəsində həm gerb haqqında, həm himn haqqında, həm də bayraq haqqında qanunlar bir yerdədir. Hamısı dövlət rəmzləri haqqında qanunun içərisində gedir. Mənim də, təbii ki, müəyyən təkliflərim var. Bu həm də

yeni maddələr ilə bağlı olacaq. Mən də fikirləşirəm ki, bu haqda öz təkliflərimi 2-ci oxunuşda bildirəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sahib müəllim. Fazil Mustafa.

**F.Mustafa.** Çox sağ olun, Bahar xanım. Ən gözəl nümunəni mən də göstərirəm. Fikirlərimi burada səsləndirdiklərinə görə vaxt almaq istəmirəm. Sağ olun.

**Sədrlik edən.** Qənirə Paşayeva.

**Q.Paşayeva.** Çox sağ olun. Hörmətli Bahar xanım, hörmətli millət vəkilləri. Mən də, əslində, fikirlərimi çox qısa söyləyəcəyəm. 2-ci oxunuşda daha müfəssəl fikirlər söyləyəcəyəm, amma bəzi məsələləri çatdırmağı özümə borc bilirəm. Xüsusi ilə çox hörmətli həmkarım Tahir müəllimin himnin sözləri, sözlərinin müəllifi ilə bağlı açılmış polemikalar haqqında fikirlərinə münasibəti. Elə cəmiyyəti də ən çox qıcıqlandıran budur. Bizim Azərbaycan himninin sözləri və bəstəsi kimə aiddir, deyə, öyrədib böyütdüyümüz uşaqlar artıq universitetdə oxuyur. Biz indi o uşaqlara bir polemika açırıq ki, əslində, illərlə oxuduğumuz himnin sözlərinin kimə aid olub-olmaması üzərində polemikalar var. Bilirsiniz, insanları narahat edən məqam da budur. Bu məsələ ilə bağlı bir çox insanlar bizə müraciət edib. Cəmiyyət Əhməd Cavadın ruhunun incidilməsindən narahatdır. Çünki himnin müəllifi olan hər iki insan Azərbaycan Cümhuriyyətində xüsusi yeri olan insanlardır. O Əhməd Cavad ki, məzarı belə yoxdur. Təbii ki, Əhməd Cavadın ruhunun hər hansı bir şəkildə narahat edilməsi cəmiyyəti qıcıqlandıran bir hadisədir. Mənə elə gəlir ki, biz bu mövzu ilə bağlı da artıq nöqtəni qoymalıyıq. Çünki illərlə əlifba kitablarımızda, dərsliklərimizdə uşaqlara öyrətdiyimiz mətinlərdə bunlar gedib. İndi filan mütəxəssis belə deyəcək, peşman mütəxəssis bunu deyir,

yox o da bunu belə demir, belə deyir, bilirsiniz, mən hesab edirəm, bu məsələlərə, ümumiyyətlə, son qoyulması lazımdır. Bu himnin mətni Əhməd Cavada, musiqisi isə Üzeyir Hacıbəyliyə məxsusdur mövzusunda hər hansı bir polemikaya artıq ehtiyac yoxdur.

Bir də himnin mətnindəki bəzi məqamlarla bağlı. Bu himn Azərbaycanın cümhuriyyət tarixi ilə bərabər doğulmuşdur. Bəli, hüququndan keçən əsgər hərə bir qəhrəman oldu. Bundan gözəl nə söz ola bilər ki? Dünyada ən böyük hüquq insanın yaşamaq hüququdur. Bizim üçün yaşamaq hüququndan vaz keçənlərdir, şəhidlərdir qəhrəmanlar. Bizim üçün yaşamaq hüququndan vaz keçənlərin hərəsi bir qəhrəman olur. Bu himnin elə bir cümləsi yoxdur ki, o, hansı şəkildəsə Azərbaycan xalqında bir bədbinlik doğursun, onu nikbin əhval-ruhiyyədən geri alsın. Heç bir belə ifadə yoxdur. Azərbaycana məhəbbət var, Azərbaycan üçün həyatını fəda var. Buna görə, ümumiyyətlə, himnimiz ilə bağlı bu qanunun qəbulunu mən dəstəkləyirəm. Çox önəmli məsələdir, elə gerbimiz ilə də bağlı. Amma himnimiz ilə bağlı mətbuatda, mediada bu cür polemikalarla əlaqədar mən mütəxəssislərə, alimlərə, təhqiqatçılara da üz tuturam. Əslində, bu, cəmiyyətimiz arasında ziddiyyəti dərinləşdirir. Bunun fərqində olmalıyıq. Mənə elə gəlir ki, bu məsələlərə son qoymaq daha doğrudur. Əhməd Cavadın da, Üzeyir bəyin də ruhu şad olsun. Himnimizi necə ki, bu günə qədər belə sevgi ilə oxumuşuq, bundan sonra da bu cür sevgi ilə oxumaqda davam edək. Sağ olun.

*Azərbaycan Respublikası  Milli Məclisi Sədrinin birinci müavini* ***Ziyafət Əsgərov*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun, təşəkkür edirəm. Əgər başqa çıxış eləmək istəyən yoxdursa, mən hesab edirəm ki, müzakirələri, polemikaları yekunlaşdırmaq olar. Əli müəllim, 2 məsələ ilə bağlı fikrimi bildirmək istəyirəm. Sözsüz ki, qanun layihələrini ikinci oxunuşda biz maddə-maddə ətraflı müzakirə edəcəyik. Qanunun adı ilə bağlı.

Bilirsiniz ki, biz Konstitusiyanın 23-cü maddəsinə müvafiq olaraq, gerbin təsviri, dövlət himnimizin musiqisi və mətni ilə bağlı Konstitusiya qanunları qəbul elədik. Əvvəla, bu adlar eyni olanda, deyək ki, Dövlət gerbi haqqında bir qanun var, sonra Dövlət gerbi haqqında bir Konstitusiya qanunu var, bunun istifadə qaydasında bir çaşqınlıq  yaratmasın. Həm də bu qanunların hər ikisində, əslində, elə istifadə qaydalarından söhbət gedir. Mən hesab edirəm ki, qanunun adı Dövlət gerbi, yaxud Dövlət gerbindən istifadə qaydaları haqqında olsa, daha münasib olar. Çünki elə qanunların mətinlərində, əslində, söhbət bundan gedir.

İkinci məsələ, Əli müəllim, mənim üçün bu şəxsən çox prinsipial məsələdir. Dövlət himni səslənərkən bu, ayaq üstə dinlənilməlidir. Bu, birmənalıdır. Amma dövlət himni səslənəndə insanlar ayaq üstə hansı vəziyyətdə durmalıdır? Farağat vəziyyətində. Amma bizdə nə cür vəziyyət alınır. Biri farağat durur, əllər yanda. Biri əlin qoyur bura *(əlini sinəsinə qoyur)*. Bu məsələyə bir aydınlıq gətirilməlidir. Biz dövlət himnini farağat, əllər yanda qulaq asmalıyıq, yoxsa, belə qulaq asmalıyıq. Yaxud da hər iki halda olar? Yəni bu məsələyə, xahiş edirəm, bir

aydınlıq gətirək. Çünki bu, dövlət atributumuzdur, konstitusion institutudur. Bizim uşaqlarımız, gənclərimiz, tələbələrimiz, vətəndaşlarımız bu Konstitusiya qanunlarının ruhunda, gerb ilə, himn ilə, bayraq ilə tərbiyə olunub. Bu məsələdə, xahiş edirəm, bir dəqiqlik olsun. Himn səslənəndə hamı bilsin ki, onu necə dinləmək lazımdır. Araz Əlizadə söz demək istəyir. Buyurun.

**A.Əlizadə.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Əzizlərim, burada himndən, himnin sözlərindən danışanda heç kəs himnin sözlərini tənqid etmədi. Amma mənə elə gəlir ki, kim isə bir işi görməyibsə, həmin işin müəllifi deyilsə, amma bunu onun adına çıxırlarsa, bu, həmin insanın ruhuna təhqirdir. Çünki Əhməd Cavadın çox böyük, gözəl əsərləri var. Lakin əgər bu şeiri Camo bəy yazıbsa və bunun təsdiqi varsa, nə üçün biz deməliyik ki, yox bu elə Əhməd Cavaddır. Mətnə heç kəsin sözü yoxdur, mətn məqbuldur. Gözəl sözlərdir. Amma burada məsələ müəllif məsələsidir. Bu, ona oxşayır ki, biz deyək, bəli, uzun müddət insanlara yer düzdür, fil üstündə durub, deyiblər. Sonra tədris edilmiş uşaqları çaş salmamaq üçün bunu deməyək ki, yer kürəsi dairəvidir və fırlanır. Çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən xahiş edirəm, gəlin, mübahisə açmayaq, bu məsələni yekunlaşdıraq. İkinci oxunuşda məsələni aydınlaşdırarıq. Xahiş edirəm, Azərbaycan Respublikasının Dövlət gerbi haqqında qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının Dövlət himni haqqında Azərbaycan Respublikası qanununun layihəsi, birinci oxunuş. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi, birinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, Ziyafət müəllim. Bilirsiniz ki, Milli Məclisin deputatının statusu, Milli Məclisin nizamnaməsi layihələri üzərində işçi qrupu çalışır. Konstitusiyada dəyişiklik edilməsi haqqında referendum aktının və "Normativ hüquqi aktlar haqqında" Qanunun tələblərindən irəli gələrək, eyni zamanda, komitə tərəfindən Milli Məclisin komitələri haqqında qanuna da əlavələr və dəyişikliklər təklif edilmişdir. Fürsətdən istifadə edib, qeyd etmək istəyirəm ki, bu layihənin komitədə müzakirəsindən sonra mətbuatda belə yazılar getmişdir ki, Milli Məclisin komitələrinin səlahiyyətləri artırılır. Qeyd

etməliyəm ki, Milli Məclisin komitələrində bu səlahiyyətlər onsuz da mövcuddur. Layihə isə söylədiyim kimi, komitələr haqqında qanunu "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa uyğunlaşdırmaq xarakteri daşıyır. Yəni o məsələlər ki, əslində, mövcuddur və praktikada da həyata keçirilir, indi, sadəcə, komitələr haqqında qanunda da öz əksini tapır. Söhbət Milli Məclisin səlahiyyətinə aid olan bir sıra məsələlərdə, deyək ki, hesabatların verilməsi, məlumatların dinlənilməsi prosesinin təbii olaraq digər bütün məsələlər kimi, öncə komitə müzakirələrində də həyata keçirilməsini nəzərdə tutur. Artıq bir şey yox.

Eyni zamanda, layihədə bir məsələ də əhəmiyyətlidir. Bu, onunla bağlıdır ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu layihələrin hüquqi ekspertizasının həyata keçirilməsi tələbini qoyur. Təklifimiz ondan ibarətdir ki, layihələrin məcburi hüquqi ekspertizası Milli Məclis Aparatının səlahiyyətli struktur bölməsi tərəfindən həyata keçirilsin. Hörmətli millət vəkilləri, təqdim etdiyimiz layihəyə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Qanun layihəsi birinci oxunuşda konseptual baxımdan müzakirə olunmalı və səsə qoyulmalıdır. Əli müəllim geniş izahat verdi. Mən hesab edirəm ki, heç müzakirəyə ehtiyac yoxdur. Burada hər şey aydındır. Ona görə xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 
Nəticə: Qəbul edildi

Qəbul edildi, sağ olun.

Nəhayət, bizim bugünkü gündəliyimizin sonuncu məsələsi. Ümumi təhsil haqqında Azərbaycan Respublikası qanununun layihəsi, birinci oxunuş. İsa müəllim, buyurun.

**İ.Həbibbəyli,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli millət vəkilləri, hamınıza yaxşı məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə elm və təhsil siyasətini cəmiyyət quruculuğunda vacib mərhələ kimi uğurla irəli aparmaq istiqamətində tədbirlər həyata keçirir. Bizim Milli Məclisdə qəbul olunmuş "Təhsil haqqında" Qanun 2009-cu ildən sonra bu istiqamətdə çoxcəhətli fəaliyyətin tənzimlənməsinə öz töhfəsini vermişdir. 2018-ci ildə həmin qanuna edilmiş 62 maddəlik əlavə və dəyişiklik bu çərçivə qanununun daha da təkmilləşməsinə, müasir həyatla, yeni hədəflərlə uyğunlaşmasına şərait yaratmışdır. Beynəlxalq normalara uyğun olaraq, çərçivə qanununun əhatə etdiyi ayrı-ayrı təhsil pillələri və səviyyələri haqqında da qanun layihələrinin hazırlanması tələb olunur. Buna uyğun olaraq, Milli Məclisdə 2016-cı ildə Məktəbəqədər təhsil haqqında, 2017-cu ildə isə Peşə təhsili haqqında qanun layihələri müzakirə edilərək qəbul olunmuşdur. Artıq onların da fəaliyyətinə start verilmişdir. Bu gün sizin müzakirənizə təqdim olunan Ümumi orta təhsil haqqında qanun layihəsi də həmin çərçivə qanunu olan "Təhsil haqqında" Qanunun bu mərhələsinin hüquqi bazasını yaratmağa və onun fəaliyyətini tənzimləməyə xidmət edir.

Beş fəsil, 33 maddə və 364 bənddən ibarət olan Ümumi

təhsil haqqında qanun layihəsində orta təhsilin, qəbul olunmuş şəkildə desək, orta təhsilin bütün səviyyələrinin, pillələrinin məqsəd və vəzifələri, inkişaf istiqamətləri, hüquqi cəhətdən tənzim olunması öz əksini tapmışdır. Qanun layihəsində əsas anlayışlar ümumi orta təhsilin mahiyyətini, məzmununu, fəaliyyət sahəsini daha aydın şəkildə təsəvvür etmək üçün açar funksiyasını daşıyır. Biz əsas anlayışlarda "Təhsil haqqında" Qanunda və onun mərhələlərinə aid olan qanunlarda istifadə olunan bir sıra anlayışları, xüsusən birinci oxunuş üçün saxlamağı məqsədəuyğun saydıq. Çünki qaydaya görə, qanun layihələri müxtəlif təşkilatlara rəyə göndərilir, Milli Məclisdə elm və təhsil sahəsinə aid olmayan deputat qrupları da, həmkarlarımız da bunu oxuyurlar. Daha anlaşıqlı olsun deyə, bu anlayışları saxladıq, amma bəzi müddəalar ikinci oxunuşdan sonra əvvəlki mərhələlərə aid qanun layihələrində olduğu üçün ixtisar ediləcəkdir. Bunları, sadəcə, maarifləndirmə məqsədi ilə saxlamışıq.

Şübhəsiz ki, qanun layihəsində ilk növbədə dövlət standartları, dövlətin təhsil sahəsində vəzifələri, dövlət siyasətinin əsas istiqamətləri öz əksini tapmışdır. Qanun layihəsində birmənalı göstərilmişdir ki, təhsilin digər pillələrində olduğu kimi, Azərbaycan Respublikasında ümumi orta təhsil milli və bəşəri dəyərlərə, azərbaycançılıq prinsiplərinə uyğun şəkildə həyata keçirilir. Dövlət standartının əsas meyarları, prinsipləri də bu müddəaların içərisində yerini almışdır.

Ümumi təhsil haqqında qanun layihəsinin əsas maddələrini əhatə eləyən II fəsildə ümumi təhsilin təşkili məsələləri öz əksini tapmışdır. Burada ilk növbədə kurikulumların, proqramların mahiyyəti, inklüziv təhsil, onun mahiyyəti, həyata keçirilməsi prinsipləri yer almışdır. Eyni

zamanda, II fəsilin ayrı-ayrı maddələrində ümumi təhsilin səviyyələri müəyyən olunmuşdur. İlk dəfə olaraq məktəbəqədər təhsil 5 yaşından başlamaqla ümumi orta təhsilin konkret bir səviyyəsi kimi qeyd olunmuşdur. Təhsilin səviyyələrinə ibtidai təhsil, ümumi orta təhsil, tam orta təhsil aid edilmişdir. Eyni zamanda, qanun layihəsində bu səviyyələrin hər birinin mahiyyəti, məqsədi, vəzifələri, idarə olunması kimi məsələlər də öz əksini tapmışdır. Təhsilalmanın formaları bütün mərhələlər üzrə – əyani, sərbəst, işdə təhsil kimi müəyyən olunmuşdur. Mülkiyyət növünə görə Azərbaycan Respublikasında dövlət, özəl və bələdiyyə məktəblərinin yaradılması məqsədəuyğun hesab edilmişdir. Doğrudur, indiki halda Azərbaycanda bələdiyyələr hələ ki, məktəb açmaq, onu idarə etmək imkanlarına malik deyildir. Amma qanun layihəsi bir il, yaxud qısa müddət üçün nəzərdə tutulmur. Uzun dövrü əhatə eləməlidir. Ona görə biz hesab edirik ki, Azərbaycanda bələdiyyə sistemi də inkişaf edəcək, onların da bu sahədə fəaliyyət göstərmək imkanları yaranacaqdır. Ona görə biz burada bələdiyyə təhsilinə aid müddəanın qorunub saxlanmasını vacib saydıq. Bu qanunda həm dövlət, həm özəl, həm də bələdiyyə ümumi orta təhsilinin vəzifələri, funksiyaları, hüquqları kimi məsələlər də geniş yer almışdır. Nəzərdə tutulur ki, Azərbaycan Respublikasında ümumi orta təhsil əyani formada həyata keçirilir, əlçatandır. Hər bir şagird üçün bərabər imkanlara malikdir. Təhsil müəssisələrində lisenziya müddətsiz verilir. Bütün bunlar Azərbaycan dövlətinin yeni nəsli hazırlamaq, inkişaf etdirmək, müstəqil Azərbaycan dövlətinin ümummilli, ümumdövlət məsələlərini həll etməyə qadir ruhda, səviyyədə tərbiyə olunmasına xidmət edir.

“Ümumi təhsil müəssisəsinin idarə olunması” yarım

fəslində məktəbin idarə olunması, məktəb rəhbərlərinin təyin olunması qaydası, eyni zamanda, valideynlərin, digər qanuni nümayəndələrin, təhsil alanların, təhsil verənlərin hüquq və vəzifələrinə dair konkret müddəalar vardır. Bunlar real praktikanı, dünya təcrübəsinin və qanunvericiliyin prinsiplərini özündə ehtiva edir. Ümumiyyətlə, Ümumi təhsil haqqında qanun layihəsində tədris dilinin Azərbaycan Respublikasının dövlət dili – Azərbaycan dili olması müəyyənləşdirilir. Eyni zamanda, valideynlərin, təhsil alanların arzusundan asılı olaraq ölkəmizdə Azərbaycan dilinin üstünlüyü, aparıcılığı qorunub saxlanmaq şərti ilə təhsilin digər dillərdə aparılması da mümkün hesab edilir və bu zaman məktəblərdə Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan coğrafiyası, Azərbaycan tarixi fənlərinin mütləq tədrisi də vacib məsələlər sırasında konkret müddəalarda öz əksini tapmışdır. Eyni zamanda, təsisçi əcnəbi olarsa, o zaman təhsil müəssisəsinin rəhbərinin müavininin mütləq azərbaycanlı olması və təhsilin təşkili ilə məşğul olan pedaqoji heyətin tərkibində sayca azərbaycanlıların üstünlüyünün təmin edilməsi prinsipinə də qanun layihəsində xüsusi diqqət yetirilmişdir.

Təhsilin iqtisadiyyat məsələləri qanun layihəsinin ayrıca fəslində öz əksini tapmışdır. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət büdcəsindən, büdcədənkənar vəsaitlərdən, qrantlardan, ianələrdən, cəlb olunmuş investisiyalardan, eyni zamanda, ümumtəhsil məktəbinin sahibkarlıq və innovasiya sahəsində əldə etdiyi gəlirlərdən ibarət olması ayrı-ayrı maddələrdə təsbit edilmişdir. Qanun layihəsində təhsilin bu mərhələsində imkan daxilində sahibkarlıq və innovasiya fəaliyyəti ilə məşğul olmaq, şagirdləri ona alışdırmaq, məktəbdə bu imkanları yaratmağa dair müddəalar da vardır.

Qanun layihəsinin V fəslində ümumi təhsil sahəsindəki beynəlxalq əməkdaşlıq məsələləri öz əksini tapmışdır. Beynəlxalq əməkdaşlığın təşkili, tənzimlənməsi, vəzifələri kimi müddəalar konkret olaraq bu fəsildə əhatə edilmişdir.

Bütövlükdə, Ümumi təhsil haqqında qanun layihəsi təhsilin əsas mərhələsi olan ümumi təhsilin təşkili, fəaliyyəti, idarə olunması, bu günü və gələcəyi ilə bağlı olan məsələləri əhatə edir. Hesab edirik ki, Ümumi təhsil haqqında qanun layihəsinin qəbulu və tətbiq olunması müstəqil Azərbaycan dövlətinin milli və dövlətçilik maraqlarına xidmət edən yeni vətənpərvər, hazırlıqlı nəslin yetişməsinə, formlaşmasına öz töhfəsini verə biləcəkdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, İsa müəllim. Qanun layihəsinin müzakirəsinə keçməzdən əvvəl bir məsələni sizinlə müzakirə etmək lazımdır. Reqlamenti 5 dəqiqə eləyək? Çünki yazılanlar çoxdur və etiraz eləməsəniz, fasiləsiz işləyək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bu məsələ də həll olundu. Buyurun,
Tahir Kərimli.

**T.Kərimli**. Təşəkkür edirəm. Hörmətli sədrlik edən, hörmətli deputatlar, çox mühüm qanundur, 10 milyonluq xalqımızın hamısına aid bir qanundur. Ona görə də hüquqi yönləri ilə bağlı öz mülahizələrimi bildirmək istərdim. Əvvəla, onu deyim ki, bu il təhsilə 2 milyard 275 milyon manat pul ayrılıb. Demək olar ki, qarşıdakı 2022-ci ilə kimi bu tendensiya gözlənəcəkdir. Ümumi təhsilə ayrılan pul 1 milyard 289 milyondur və demək olar ki, təhsilə ayrılan pulun yarıdan çoxu ancaq ümumi təhsil üçün ayrılır. Mən İsa müəllimə təşəkkür edirəm ki, çox gözəl məruzə elədi və qanun layihəsini də çox yaxşı hazırlayıblar.

Qarşıda, doğrudan da, olduqca çox böyük vəzifə durur.

Bu, ondan ibarətdir ki, biz təhsil sistemini necə daha da mükəmməl eləyək. Bəzi sahələrdə sovet təhsil sistemindən bir az geri düşmüşük, onları necə bərpa eləyək, təlim, təhsil sahəsində bu məsələlər nədən ibarətdir? Məsələn, dərsliklərimiz bərbad haldadır, rus dilindən tərcümələr yaxşı deyil, məktəblərdə pulyığdı kampaniyaları keçirilir, ali məktəblərə repititorlar vasitəsilə daxil olurlar. Məktəb binalarının bir çoxuna nə qədər zəhmət çəkilsə də, yaxşı vəziyyətdə deyil. Hətta mənim seçildiyim dairədə də bir sıra kənd məktəbləri var ki, ümumiyyətlə, sıfır nəticə göstərirlər. Əgər belə vəziyyətdirsə, onda niyə görə bu qədər pul ayrılır? Sonda Parlamentlərarası İttifaqın prezidenti Barronun dediyi sözü yada salmaq istəyirəm. Deyir, təhsilə borc kimi baxmaq lazımdır. Bu məni çox həvəsləndirir. Biz borc kimi baxaraq bu məsələni deyirik.

Qanun layihəsinin giriş hissəsindəki bir sıra məsələlər 2.1-ci maddəsində təkrar olunur. Bu, Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələr, beynəlxalq konvensiyalar, insan hüquqları və sairdir. İstərdim, imkan varsa, buna diqqət edilsin. Bundan başqa, "Təhsil haqqında" Qanunda qeyri-formal təhsil nəzərdə tutulur. Burada bilmirəm, necə həll olunur, mən rast gəlmədim. Eyni zamanda, dərnək fəaliyyəti haqqında da bu qanuna müəyyən dəyişiklik etmək, artırmaq olar. Bundan başqa, 1.1.33-cü maddədə təhsildən söhbət gedir, amma burada tədrisin tərifi verilmir. Təlimin, təhsilin tərifi var. Amma 1.1.35-ci maddədə görürük ki, təhsilin proqramlarına tədris fənləri və təlimin nəticələrinin qiymətləndirilməsi daxildir. Deməli, tədris və təlim təhsilin komponentləridir. Bu, mənə sonrakı maddələrdə də lazım olacaq, ona görə deyirəm. Hesab edirik, bu qanunun 2.3-cü maddəsi zəruri edir ki, biz Dini təhsil haqqında da xüsusi qanun qəbul eləyək.

3.1.4-cü maddədə ümumi təhsilin icbariliyi yazılıb. Burada bilirik ki, 1.1.40 və 1.1.41, 12.10-cu maddələr icbariliyi bütün ümumi təhsilə deyil, ancaq orta təhsilə aid eləyir. Deməli, burada ümumi təhsil deyil, ümumi orta təhsil olmalıdır.

Bir də, təhsilverənlərlə bağlı mülahizə bildirmək istərdim. 4.1.26-cı maddədə kadrlara tələbatı müəyyən etmək, həmin tələbata uyğun kadrların hazırlanması və işə qəbulu nəzərdə tutulur. Mən istisna eləmirəm, əvvəllər də demişəm, burada daha çox kişi müəllimləri nəzərdə tuturam. Deməli, 5.1-də dövlət standartlarının hazırlanmasına 5 ildən az olmayaraq vaxt ayrılır. Amma biz bilirik ki, Ümumi təhsil haqqında qanun mərhələlərə bölünür. Çünki 11-ci maddədə mərhələlər var. Bunlar da müxtəlifdir. Dörd il, iki il və sair. Mənə elə gəlir ki, "5 il müddəti" əvəzinə "mərhələlərə uyğun" yazılmalıdır.

6.1-ci maddə, ən mühüm məsələ budur. Yazılır "tədris dili". Mən əvvəllər də demişəm, – fürsətdən istifadə edərək İsa müəllimə dillə bağlı elədiyi çıxışın mətbuata getməyən ifadələrinə görə minnətdarlığımı bildirirəm, – burada istəyirəm deyəm ki, maddənin adı "təhsil dövlət dilində aparılır" belə olmalıdır, yəni tədris yox. Bayaq dedim ki, tədris bütün təhsilin komponentidir. Bunu belə yazmaq daha yaxşıdır. Eyni zamanda, burada çoxlu "özəl" sözü var, biz bunu "xüsusi" elədik. İsa müəllim, siz də "özəl" sözünə görə məni müdafiə elədiniz. Burada təzədən neçə yerdə "özəl" yazmısınız. Bu, özəl sözünü, axı, qəbul eləmədilər. Ona da diqqət eləmək istəyirəm. Sonra 12.7-ci...

**Sədrlik edən.** Mən çox üzr istəyirəm. Hörmətli həmkarlar, gəlin, bir məsələni həll eləyək, yoxsa bizim müzakirələr uzanacaq. Mən qeyd elədim bayaq. Biz bu qanun layihəsini birinci oxunuşda müzakirə edirik. Təkliflərinizi

ümumiləşdirin və konseptual fikir söyləyin. Maddə-maddə müzakirə eləsək, bilirsiniz, nə qədər uzanacaq? İkinci oxunuş olacaq, o vaxta qədər təkliflərinizi yazıb verə bilərsiniz, çıxış da eləyə bilərsiniz. Amma indi bilmirəm, İsa müəllim, buna yəqin ikinci oxunuşda baxarsınız. Mənə elə gəlir ki, Tahir müəllim axırda bir fikir dedi "xüsusi", "özəl" sözləri ilə bağlı. Mülkiyyət məsələsində "xüsusi" gedir, amma təhsil məsələsində məncə, "özəl" bəlkə də işlənə bilər. Hər halda bizim Konstitusiyamızda "xüsusi" anlayışı var, "özəl" anlayışı yoxdur. Amma hər halda baxmaq olar.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Tamamilə doğrudur, ona görə də mən bu fikri söylədim, buna baxmaq olar. Əli Məsimli, buyurun.

**Ə.Məsimli**. Çox sağ olun, Ziyafət müəllim. Mən həm özüm, həm də Vahid müəllimin adından çıxış edirəm ki, bir nəfərin də əlavə çıxış etməsi üçün imkan olsun. Vahid müəllim artıq siyahıdan  çıxdı.

**Yerdən.** *(Eşidilmir.)*

**Ə.Məsimli.** Nümunə göstəririk, bəli. Ümumi təhsil haqqında qanun layihəsi model qanun olan "Təhsil haqqında" Qanundan çıxan çərçivə qanunudur. Ona görə, ikinci oxunuşa dair, Ziyafət müəllim, bizim kifayət qədər fikirlərimiz var, onları saxlayırıq. Birinci oxunuşun tələblərinə uyğun surətdə bəzi sualları qaldırırıq. Birinci sualın mahiyyəti ondan ibarətdir ki, bu, çərçivə qanunudursa, mütləq və mütləq "Təhsil haqqında" Qanunun tələblərinə uyğun olmalıdır. Ona görə birinci sual ondan irəli gəlir ki, işlənib hazırlanmış bu çərçivə qanunu ümumən "Təhsil haqqında" Qanunun müddəalarına nə qədər uyğundur?

İkinci, dörd il bundan qabaq təhsil haqqında çox gözəl bir konsepsiya qəbul olunmuşdu. Həmin konsepsiya

bütövlükdə təhsilin bütün növləri barədə beynəlxalq praktikada öz əksini tapan bütün gözəl nümunələri əks elətdirirdi. Amma çox təəssüflər olsun ki, o konsepsiya barədə məmurların mülahizələri Prezidentin imzası olan bir sənəddə üstünlük təşkil eləməyə başlayıb, orada xeyli məqamlar var, tamamilə yaddan çıxıb.

İkinci sual, Ümumi təhsil haqqında hazırlanan qanun layihəsi bilavasitə Təhsil konsepsiyasının müddəalarına nə qədər uyğundur?

Üçüncü məqam ondan ibarətdir ki, Ziyafət müəllim, Siz hüquqşünassınız, publik hüquqi şəxs ifadəsi yaman moda düşüb, harada gəldi istifadə edirlər. Burada da 12.1-ci maddədə göstərilib ki, ümumi təhsil müəssisəsi publik hüquqi şəxsdir. 12-4-cü maddədə göstərilib ki, Azərbaycan Respublikasında mülkiyyət növünə görə dövlət, bələdiyyə və özəl ümumi təhsil müəssisələri fəaliyyət göstərir. Xahiş edirəm, bunlara bir açıqlama verin ki, publik hüquqi şəxs və dövlət, xüsusi, özəl və sair və ilaxır. Bizim kifayət qədər deyiləsi fikirlərimiz var, bu məqamlar həddən artıq çoxdur.

Növbəti sual. Bu qanun qəbul olunur ki, hansısa problemlərin hüquqi bazasını təşkil eləsin. Bu qanunun qəbul edilməsi ümumi təhsil sahəsində hamıya məlum olan neqativlərin aradan qaldırılmasında hansı rol oynayacaqdır? Azərbaycanda orta məktəbi qurtaran hər üç nəfərdən ikisi ali təhsildən kənarda qalır. Yaxşı olmaz ki, – təhsil haqqında düşünəndə, – ali məktəbə girməyəcəkləri halda həmin insanların hansı yollarla özünə iş tapması, peşə sahibi olması haqqında da biz düşünək. Bunun üçün müasir dövrdə iki yol var. Birincisi, bilgisayar texnologiyasına orta məktəblərdə yüksək səviyyədə nail olunması ki, o insanlar ondan istifadə edib, çörəyini çıxara bilsin.

İkincisi, orta məktəbdən, bəlkə də bağçadan başlayaraq bir neçə dilin öyrənilməsinə nail olmaq ki, onlara bir neçə dili bilməklə özünün qazancını çıxarmaq üçün xeyli dərəcədə şərait yaradacaq.

Nəhayət, həmin konsepsiyada göstərilmişdi ki, təhsilin xərcləri ümumi daxili məhsulun 5–6 faizinə çatdırılsın. Baxmayaraq ki, bizdə artıq təhsil xərcləri 2 milyard 275 milyon manatdır, ancaq Azərbaycanda təhsil xərcləri ümumi daxili məhsulun 3 faizindən aşağıdır. Amma iqtisadi təhlükəsizlik konsepsiyasına görə, hər bir ölkədə ümumi iqtisadiyyatın rəqabət qabiliyyətini qaldırmaqdan ötrü təhsilə çəkilən xərclər – özəl, dövlət və sair hamısı bir yerdə ümumi daxili məhsulun 10 faizi səviyyəsində olmalıdır. Bizdə təhsilə çəkilən xərclər ümumi daxili məhsulun deyil, heç büdcənin 10 faizini  təşkil eləmir. Ona görə də belə qanunlar qəbul edəndə hesab edirəm ki, bu istiqamətdə işləri sürətləndirmək barədə düşünməliyik.

Bir də müəllimlərin maaşları. Qeyd olunur ki, yeni üsullar tətbiq etməklə müəllimlərin bir hissəsinin maaşları 500 manata çatıb. Amma ümumi müəllimlər üçün bu, 500 manat deyil, harada isə 300 manatdan bir qədər artıqdır. 300 manatdan bir qədər artıq maaş alınan məktəblərdə isə təhsilin keyfiyyətindən danışmaq olmaz. Ona görə də Təhsil konsepsiyasında nəzərdə tutulan adambaşına düşən ümumi daxili məhsulun 1,2–2 misli nisbətində müəllimlərin maaşlarının artırılması istiqamətində addımlar atılaraq müəllimlərin maaşları orta əmək haqqına çatdırılmalıdır. Orta əmək haqqı artdıqca da müəllimlərin maaşlarının da həmin templərlə artırılması istiqamətində addım atılmalıdır.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Sağ olun, Ziyafət müəllim. Bu yaxınlarda biz Dünya Bankının bir açıqlaması ilə tanış olduq.

Orada qeyd olunurdu ki, Azərbaycan əhalinin təhsillə əhatə səviyyəsinə görə region dövlətlərindən iki dəfə geridə qalır. Amma bu, şəxsən mənim üçün yenilik olmadı. Düşünürəm ki, Sizin üçün də yenilik deyil. Ona görə ki, bu məsələni mən ən azı bir neçə dəfə Milli Məclisdə hökumət üzvlərinin diqqətinə çatdırmışdım.

Konseptual baxımdan, əlbəttə, bu qanunun mən lehinə səs verəcəyəm. İsa müəllimə və onun komandasına minnətdarlığımı bildirirəm, doğrudan da, bizim müvafiq komitə elm, təhsillə bağlı bir neçə sanballı qanun layihələri hazırlayıb. Bu da, onlardan biridir. Amma burada təhsilin, xüsusilə də ümumi təhsilin əsas problemləri öz həllini tapmır.

Bu gün Azərbaycanda ümumi təhsilin əsas problemi repetitorluqdur. İsa müəllim, yəqin ki, Siz bunu bilirsiniz. Amma bu barədə, bunun necə aradan qaldırılması ilə bağlı bu qanunda hər hansı bir tənzimləyici rolu görmürük. Dəfələrlə mən söyləmişəm ki, Azərbaycanda təhsilin əsas problemlərindən biri budur. İstənilən ali məktəbə gedin, auditoriyaya girin və sorğu keçirin ki, kim repetitor yanına getməyib və ali məktəbə daxil olub. Ola bilər ki, genişləndirilmiş qrupda, mən qrup demirəm, 1 nəfər, 2 nəfər belə adam ola bilər. Amma açıq deyirəm ki, bu, həm də valideynlərin büdcəsinə ciddi ziyan vurur. Bəzi valideynlər, hətta uşaqlarını lazımınca qidalandırmırlar, amma istəyirlər ki, uşaqları təki ali təhsil ala bilsinlər. O pulları repetitorlara ödəyirlər. Ona görə də bu qanunda öz əksini tapmalıdır ki, orta məktəb müəllimlərinin minimum əmək haqqı orta aylıq əmək haqqından aşağı ola bilməz. İkincisi, belə deyək, bu repetitorluq əgər hökumətimiz, dövlətimiz tərəfindən qəbul olunursa, deməli, bu, qanunvericiliklə tənzimlənməlidir. Yox, qəbul olunmursa, demək, bunun

aradan qaldırılması istiqamətində hansı isə addımlar atılmalıdır. Yəni bu da birbaşa hökumətin borcudur.

İkinci mühüm məsələ hesab edirəm ki, təhsildə iki-növbəli tədrisdir. Bu, ən ciddi problemdir. Dünyada çox-dan bu yığışdırılıb. Bunun üçün Azərbaycanda yeni mək-təblər tikilməlidir və məktəb tikintisi vergi güzəştləri yolu ilə dövlət tərəfindən stimullaşdırılmalıdır. Qanunda bu, öz əksini tapmalıdır. İkincisi, xeyriyyəçilik stimullaşdırıl-malıdır və qanunda bu da öz əksini tapmalıdır. Mən hesab edirəm ki, bu cür məsələləri biz qanunvericilik səviyyəsin-də fundamental baxımdan həll etmədən, ciddi dəyişik-liklərə nail ola bilməyəcəyik.

Başqa bir mühüm məsələ. Mən dedim ki, biz həm alim-lərin, həm də ali təhsillilərin sayına görə region döv-lətlərindən çox geri qalırıq. Bunun aradan qaldırılması üçün bizdə baxın, – İsa müəllim, bu gün Fransada sarı gö-dəkçəlilərin ən böyük tələblərindən biri odur ki, bilirsiniz, orada artıq nümayişlərə çıxıblar, tələb edirlər, – ali məktəblərə qəbul sadələşdirilməlidir. Azərbaycanda da bu edilməlidir. Ali məktəblərə qəbul sadələşdirilməli və ali məktəblərə qəbul yalnız orta məktəbin buraxılış imtahan-larının nəticələrinə uyğun aparılmalıdır. Bütün sivil dün-yada bu belədir. Yəni niyə biz bu addımı ata bilmirik, mən bunu, doğrudan da, başa düşə bilmirəm. Sizi əmin edirəm ki, belə olacağı təqdirdə belə deyək, repetitorluğun qarşısı ciddi surətdə alınacaqdır. Yəni bunun qarşısını almağın yollarından biri budur. Bax, bu fundamental məsələləri biz həll etməsək, düşünürəm ki, nə qədər mükəmməl qanunlar qəbul etsək də bu, doğrudan da, ümumi təhsilin inkişafına öz töhfəsini verə bilməyəcək.

Biz onsuz da geriyə doğru bir addım atmışıq. Mərhum Prezident, Allah qəni-qəni rəhmət eləsin, Heydər Əliyevin

dövründə, 1995-ci ildə qəbul olunmuş Konstitusiyaya görə, ali təhsilə qədər olan təhsil mərhələsi icbari idi. Sonradan biz özümüzdən "Təhsil haqqında" Qanuna bir müddəa daxil etdik, tam orta təhsil yaratdıq, yəni bunu elədik ki, artıq 9-cu sinifdən uşaqlar təhsili yarımçıq saxlayıb, gedə bilərlər. Bu da, artıq geriyə doğru böyük bir addım idi. Çox təəssüf ki, biz bunu atdıq. İndi hesab edirəm ki, heç olmasa, bu qanunda biz ümumi təhsilin, yəni bütünlüklə, tam orta təhsilin icbari olması məsələsinə də yenidən qayıtmalıyıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm, Ziyafət müəllim. Qanun layihəsi vacib layihədir. Mən də İsa müəllimə təşəkkürümü bildirirəm ki, parlamentdə bir neçə ciddi qanun layihəsi qəbul olunubdur və həyata keçirilir. Təhsil elə bir sahədir ki, burada kimliyindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları bu və ya digər şəkildə bu sistemlə bağlı olan insanlardır. O baxımdan da, mən də təhsillə əlaqədar bir neçə kəlmə öz fikirlərimi söyləmək istəyirəm.

Mənə elə gəlir ki, orta təhsil sistemi nisbətən sadələşdirilməlidir. Şagirdi bu qədər yükləmək olmaz. Gəlin, bir gün gedək orta məktəblərin qarşısında dayanın və oradan çıxan uşaqların vəziyyətinə tamaşa edin. Əgər axıra qədər təhsilini başa çatdırsa belə, o uşaqların içərisindən gələcəkdə nə hərbçi, nə əsgər, nə də hüquq mühafizə orqanlarına seçib götürmək qeyri-mümkün olacaqdır. Vaxtı ilə idmana da, əyləncəyə də, təhsilə də vaxt ayrılırdı və uşaq hərtərəfli inkişaf edirdi. İndi biz Koreyanı keçmişik. Uşaq səhər saat 8-dən gecə saat 10-a qədər ancaq təhsil almaqla, oxumaqla məşğuldur. Cənubi Koreyada təhsillə məşğul olmaq müddəti 11, 12, 13 saat çəkir. Bizdə də artıq bu sistem əsasında həyata keçirilir. Ona görə də mən hesab

edirəm ki, burada hansı isə bir sadələşdirmə üsulu tətbiq etməliyik. Hansı isə bir dövlətin mexanizmini gətirib, elə olduğu kimi tətbiq etmək olmaz. Milli psixologiya, strategiya var və biz buna uyğun da işimizi qurmalıyıq.

Qüdrət müəllim dedi, repetitorlarla əlaqədar ki, valideynlər repetitorlar tuturlar. Mən deyim ki, valideynlər, tək repetitor yox, hələ çanta daşıyan da tuturlar. İçərisindəki kitablarla birgə hər bir məktəbli çantasının ağırlığı 12–13 kiloya gəlib çıxır. 2-ci, 3-cü, 4-cü, 5-ci sinifdə oxuyan uşaq onu özü ilə sinif otagına apara bilmir. Gərək bir nəfər tapasan ki, gətirə, apara, – valideyni məktəbə də buraxmırlar, – qoya onun sinfinə və gələndə də oradan götürə.

Dərsliklərlə bağlı hansısa bir qərar qəbul etmək lazımdır. Həmişə burada bu məsələ ciddi şəkildə müzakirə olunubdur. Dərsliklə bağlı elan olunmalıdır. Bu gün kim dərslik yaza, kim bunu tətbiq edə və kimlər dərsliklərə salına bilər. Digər tərəfdən, burada məktəblərlə əlaqədar fikir söylənildi. Mən də onun tərəfdarıyam ki, məktəblər tikilməlidir. Amma harada? Elə rayonlar var ki, 153 məktəbi var, onun 50-sinin hərəsində 3 uşaq oxuyur. Məktəbin direktoru, direktorun müavini, tərbiyəçisi, süpürgəçisi, müəllimi var, amma cəmi 3 uşaq oxuyur. Bunun dünyada tətbiqi var da, bir avtobus alırlar, 5 kəndin uşağını yığır gətirir mərkəzdə yerləşən bir məktəbə, axşamçağı da götürür, aparır. İndi biz Amerikadan o tərəfə keçməyəcəyik ki? Amerikanı, Kanadanı götürün. Dünyada inkişaf etmiş ölkələrdir. Biz nə qədər vəsaitə qənaət etmiş olarıq ki, müəllimlərin də əmək haqları artırıla bilər.

İkinci məsələ pullu təhsillə əlaqədardır. Kim təhsil müəssisəsi tikir, özü qiymət müəyyənləşdirir. Bir hesabat da vermir ki, yaxşı bu qiymətin neçə faizi müəllimə, neçə faizi tədrisə, neçə faizi binanın saxlanılmasına çatır və

sair. Kim hansı qiyməti istəyir, onu da müəyyənləşdirir, istər ali, istərsə də orta təhsildə. Bir institutun bir illik qiyməti 2500, o birisininki 4600-dür. Hər hansı bir əsas da göstərilmir ki, bu, nəyə görə belədir. Orta məktəblərdə də yenə həminki kimi. Birinin qiyməti 7000, o birisininki 5000, üçüncüsününkü isə 4000-dir. Bunlar axı, müəyyənləşməlidir, konkretləşdirilməlidir və bilinməlidir ki, bunun neçə faizi tədrisə və təhsilə sərf olunur. Orada işləyən müəllim də heç o qədər yüksək əmək haqqı da almır. Yəni digər adi məktəblərdən cüzi fərq edir. Amma orada bu qədər pul qazanır, o, hara gedir, hansı formada sərf olunur? Bunlar da aydınlaşdırılmalıdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İsa müəllim, axırda Sizə söz verəcəyəm, ümumi fikirlərinizi bildirəsiniz. İlham müəllim, buyurun.

**İ.Əliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Baxmayaraq ki, yoldaşlar da yorulublar, amma istəyirdim mən də bir neçə dəqiqə müəyyən məqamlara toxunum. Əlbəttə, hamımız bilirik ki, son illərdə təhsil sahəsində çox böyük irəliləyiş var. Mən elə, sadəcə, öz təmsil olunduğum dairəni götürmək, nəzərə almaq istəyirəm. 8 ildir mən Xaçmaz rayonundan millət vəkili seçilmişəm və bu 8 ildə inanın ki, ali məktəbə daxil olanların sayı 40 faiz artıb. Bu, az, kiçik göstərici deyil. Bu gün sizi inandırım ki, şagirdlər oxuduqları məktəblərdə, – rayonlarda, əlbəttə, bilirsiniz, o məktəblər cənab Prezidentin tapşırığı ilə tikilib, – çox böyük ruh yüksəkliyi ilə təhsil alırlar.

Bəli, kim deyir ki, təhsilimiz tam 100 faiz problemsizdir. Problemsiz deyil, müəyyən problemlər də var. Amma nəzərə almaq lazımdır ki, bu gün bu zalda toxunulan məqamlar, mənim həmkarım Qüdrət Həsənquliyevin dediyi o repetitor məsələsi, – yadımıza öz illərimizi salsaq, biz

sovet dövrünün təhsilini almışıq, o dövrün məktəblərini bitirmişik, ali məktəblərə daxil olmuşuq, – hətta sovet dövründə də repetitorlar var idi. Məktəblərdə çox güclü müəllimlər olmasına baxmayaraq, valideynlər öz balalarının təhsilini daha da gücləndirmək üçün onlara müəyyən fənlərdən repetitorlar tuturdular ki, ali məktəblərə daxil olanda problemləri az olsun. Bəli bu, o vaxt da var idi. Mən hesab edirəm, bu mənim subyektiv fikrimdir ki, oxumaq istəyən uşaq oxuyur. O ailədə ki, şərait yaradılıb, o, həmişə təhsilini alacaq. Əlbəttə, bunların böyük hissəsi valideyndən asılıdır, valideynin uşağına, onun təhsilinə olan münasibətindən asılıdır.

O ki qaldı pullu məktəblərin qiymətinə, mən də razıyam. Siyavuş müəllim çox dəqiq deyir ki, o pullu məktəblərdə qiymətlər həddindən artıq yüksəkdir. O yüksək qiymətlərlə bağlı heç birinə araşdırılma verilmir ki, o məbləğ hara gedir?

Çox vaxtınızı almaq istəmirəm. Əlbəttə, birinci oxunuşdur, mən də buna səs verəcəyəm, vacib qanunlardan biridir. Amma Təhsil Nazirliyindən burada iştirak edən yoldaşlardan xahiş edərdim, bütün bu deyilənləri nəzərə alsınlar və İsa müəllim başda olmaqla bu qanunu elə yazsınlar ki... Çünki bu qanun bizim gələcək nəsil üçün nəzərdə tutulub. Bu qanundan, doğrudan da, sözün əsl mənasında bəhrələnək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İsa müəllim, buyurun, xahiş edirəm, deyilən fikirlərə münasibət bildirin.

**İ.Həbibbəyli.** Çıxış edən deputat həmkarlarıma qanun layihəsini diqqətlə oxuduqlarına, qiymətli fikirlər irəli sürdüklərinə görə dərin minnətdarlığımı bildirirəm, eyni zamanda, bəzi fikirlər barədə öz mülahizələrimi də nəzərinizə çatdırmaq istəyirəm.

Birincisi, burada səsləndi və mən artıq buna cavab verdim, özəl təhsil və xüsusi təhsil ayrı-ayrı anlayışlardır. Əgər qanun layihəsini diqqətlə oxusanız, özəl təhsilin də, xüsusi təhsilin də funksiyaları ayrı qeyd olunmuşdur. Özəl təhsil təhsilin mülkiyyət növünə görə istiqamətlərindən biridir. Xüsusi təhsil isə çətin tərbiyə olunan, xəstəliyi, müəyyən qüsuru olan uşaqlar üçün ayrılan məktəblərdə təklif edilləndir. Bunlar bir-birindən tam ayrı anlayışlardır. İcbari təhsilin ümumi orta təhsili deyil, tam orta təhsili əhatə etməsi ilə bağlı müxtəlif çıxışlarda səslənənlərlə əlaqədar onu demək istəyirəm ki, dövlətimiz ümumi orta təhsilin şagirdin bu mərhələdə göstərdiyi səviyyəyə uyğun olaraq, ya tam orta təhsil, ya da texniki peşə məktəbi vasitəsi ilə davam etdirilməsi siyasətini həyata keçirir. Peşə məktəblərinin bir qrupu peşə təhsili ilə bərabər, həm də orta təhsil sənədi verir, o təlimi keçir. Ona görə, əgər bu iş düzgün təşkil olunarsa, – bu istiqamətdə Təhsil Nazirliyi də məqsədyönlü şəkildə iş aparır, peşə təhsili üzrə ayrıca dövlət agentliyi yaradılıb, bu fəaliyyət "Peşə təhsili haqqında" Qanunla tənzimlənir, – uğur qazanıla bilər. Onda demək olar ki, aparılan məqsədyönlü iş sahəsində ümumi orta təhsil pilləsində orta təhsili dayandırıb peşə məktəbinə keçib o sahədə həm peşə biliyi, həm də orta təhsil sənədi almaq cəmiyyətə daha çox fayda verir. Çünki orta, aşağı səviyyədə bilik göstərən, aşağı qiymətlərlə oxuyan, tam orta təhsildə yalnız yük olmaqdan başqa bir şey deyil, ali məktəbə girə, həyatda özünə yer tapa bilmir. Amma peşə məktəbinə yönəldilir, peşə öyrənir, həm də orta təhsil sənədi alır. Bunlar cəmiyyət üçün faydalı vətəndaş olur. Ona görə bundan ehtiyatlanmaq, şagirdlərin təhsildə geridə qaldığını düşünmək, məncə, doğru sayılmamalıdır.

Əli Məsimlinin suallarına cavab verərək demək istəyirəm

ki, “Təhsil haqqında” Qanun çərçivə qanunudur. Amma həmin qanundan doğan digər qanunlar, “Məktəbəqədər təhsil haqqında”, “Peşə təhsili haqqında” qanunlar və bugünkü Ümumi təhsil haqqında qanun layihəsi çərçivə qanunu deyildir. Çərçivə qanunundan doğan, lakin müasir inkişaf prinsiplərini də nəzərə alan, o sahədə fəaliyyəti istiqamətləndirən qanunlardır. Əgər biz bu qanunları 2009-cu ildə qəbul olunmuş çərçivə qanununun müddəalarına tam uyğunlaşdırsaq, onda təhsil yerində sayar və inkişaf edə bilməz. Təsadüfi deyil ki, çərçivə qanunu olan “Təhsil haqqında” Qanuna da 2018-ci ildə 62 maddə əlavə və düzəliş edildi. Bizim bu gün təqdim etdiyimiz Ümumi təhsil haqqında qanun layihəsinə də həmin 62 maddə ilə birlikdə, vaxtı ilə 2009-cu ildə qanunda olmayan, 2018-ci ildə əlavə edilən müddəalar da öz əksini tapmışdır. Əlavə olaraq, bu gün və sabah bu sahənin inkişafı üçün dünya təcrübəsində müşahidə etdiyimiz, ölkə reallığında diqqəti cəlb edən məsələləri də daxil etmək məqsədi güdmüşük. Məncə, bu daha məqbul yoldur və qanuna da zidd deyildir.

Ümumi təhsil haqqında qanun layihəsi hazırlanarkən Əli müəllimin haqlı olaraq diqqət yetirdiyi Milli Təhsil Konsepsiyasının və Milli Təhsil Strategiyasının müddəalarına birmənalı şəkildə əməl etməyə çalışmışıq. Əgər burada olan müddəalarda nə isə yaddan çıxıbsa, biz ikinci oxunuşa qədər onlara bir daha diqqətlə baxarıq. Orada olan müddəalar, həqiqətən, müasir təhsilin inkişafı üçün faydalıdır, əgər zərurət görsək, unudulmuş olsa, onları da daxil etməkdə fayda görürük.

Pullu ümumi təhsil barədə deyilən fikirlə tamamilə razıyam. Bu məsələ üzərində Təhsil Nazirliyi ilə bir yerdə düşünəcəyik. Elə bilirəm ki, deputat həmkarımın qaldırdığı məsələ öz həllini tapacaqdır.

Neqativlərin aradan qaldırılmasına bu qanun nə qədər xidmət edir? Ümumiyyətlə, həyatın digər sahələrində də, cəmiyyətin digər istiqamətlərində də neqativlərin aradan qaldırılması qanunla tənzimlənmir. Bu, bir əxlaq normasıdır, bir prinsipdir, bir həyat normasıdır, ümumi bir şeydir. Bizim qanun layihəsində açıq, konkret olaraq neqativləri dəstəkləyən heç bir müddəa yoxdur. Əksinə, neqativlik və yaxud onların aradan qaldırılması kimi ifadələr işlənməsə də, tam məsuliyyətimlə deyirəm ki, qanun layihəsində neqativliyə aparan yol açan müddəalar da, demək olar ki, öz əksini tapmamışdır. Əksinə, qanun layihəsinin müddəaları ümumi təhsilin bütün pillələrində şəffaflığı və şagirdlər üçün bərabər imkanlar yaradılmasını nəzərdə tutur. Məsələn, elektron qəbul qaydaları haqqında təhsil qanununda öz əksini tapmış müddəa Təhsil Nazirliyinin hazırda həyata keçirdiyi işdir. O, qanunla tənzimlənəcəkdir. Eyni zamanda, şagirdlərin ilk növbədə yaşayış yerlərində açılmış məktəblərə qəbul olunması haqqında müddəa cəmiyyətdə problem doğuran müddəa idi. Bu məsələ tamamilə həmin sahədə baş verə biləcək xoşagəlməz halların qarşısını almağa xidmət edir. Buna bənzər, məsələn, uşaqların 6 yaşında orta məktəblərə, 1-ci sinfə qəbul olunması ilə bağlı fikir müxtəlifliyi var idi. Bəziləri tədris ili başlayana qədər 6 yaşı tamam olanları əsas götürürdü, ilin sonuna qədər yaşı tamam olanlar isə ayrıca, arayışla, xüsusi rəylə qəbul edilirdi. Burada əlbəttə ki, subyektiv hallara yol verilməsi məqamları var idi. Amma bu qanunda ilin sonuna qədər 6 yaşı tamam olanların 1-ci sinfə qəbul olunması haqqında müddəanın yer alması həmin sahədəki bütün subyektiv halların, sizin dilinizlə desək, neqativ halların aradan qaldırılmasına tam təminat verir. Təqdim olunan qanun layihəsində buna bənzər müddəalar öz əksini tapmışdır. Biz də o fikirdəyik ki, təh-

sildə neqativ hallara yol verilməməlidir. İkinci oxunuşa hazırlayarkən bu istiqamətdə olan müddəaların daha da qüvvətləndirilməsinə diqqəti artıracağıq.

Orta məktəbdə oxuyarkən bilgisayar vərdişləri qazanmaq, bir neçə dil öyrənmək məsələsi qanunla tənzim olunan məsələ deyildir. Bu məktəb praktikasında həyata keçirilən məsələdir. Bu, bizim praktikamızda daha çox peşə məktəblərində həyata keçirilir. Elə bilirəm ki, bu məsələ Ümumi orta təhsil haqqında qanunun predmeti deyildir.

Əmək haqqı ilə bağlı məsələ. Bunu konkret rəqəmlə, əmsalla müəyyən etmək uzun müddət üçün nəzərdə tutulan Ümumi orta təhsil haqqında qanuna, ümumiyyətlə, hər hansı bir qanuna uyğun gəlmir, fayda vermir. Bu gün bu rəqəmi əsas götürürük, sabah başqa bir orta rəqəm çıxarırıq. Həyat inkişaf edir, ölkəmizin Prezidenti cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi, ümumi təhsil, ümumiyyətlə, elm və təhsil sahəsində də işçilərin sosial müdafiəsi ilə bağlı ardıcıl siyasət həyata keçirir. Elə bilirəm aparılan bu dövlət siyasəti müəllimlərin, təhsil işçilərinin sosial müdafiəsini təmin etmək üçün daha əsasdır və onu qanun layihəsində hər hansı bir rəqəmlə ifadə etmək yaxın və yaxud uzaq gələcək üçün müəyyən məhdudiyyətlərin meydana çıxmasına kömək edə bilər.

Repetitorluq. Bizim qanun repetitorluğu nə inkar, nə də təsdiq edir. Bu barədə, burada bir anlayış yoxdur. Amma təhsil qanununa tam orta təhsil səviyyəsində ilk dəfə olaraq təmayüllü qrupların yaranması haqqında müddəa daxil olunub. Bu təmayüllü qrup, əslində, repetitorların gördüyü işi məktəbdə qanuni şəkildə həyata keçirməyə tam təminat verir.

Üçnövbəli təhsil. Ölkəmizdə ardıcıl olaraq məktəb tikintisi layihələri həyata keçirilir. Demək olar ki, böyük şəhərlərdəki kiçik istisnaları nəzərə almasaq, ölkəmizdə

üçnövbəli təhsil aradan qaldırılmaq üzrədir və məktəb tikintisi sahəsində ölkəmizin Prezidentinin həyata keçirdiyi ardıcıl siyasət ən yaxın zamanda bu məsələni ortadan tam qaldırmağa təminat verəcəkdir.

Fransada qəbul imtahanı haqqında demək istəyirəm. Fransa təhsil sistemində ali məktəbə qəbul imtahansızdır. Bu, birmənalıdır. Amma təhsil alarkən oxumaq çox sərtdir. Tələbələrin iddiaları da ali məktəblərə qəbulla əlaqədar deyil. Sadəcə, təhsil sahəsindəki həmin o imtahanların təşkili, təhsil alarkən olan çətinliklərin aradan qaldırılması ilə bağlıdır. Bu ölkədə təhsil, ümumiyyətlə, imtahansızdır, Ziyafət müəllim.

Mən millət vəkillərinə irəli sürdükləri təkliflərə görə, layihəni diqqətlə oxuduqlarına görə bir daha minnətdarlığımı bildirirəm. Təhsil Nazirliyinin işçiləri buradadır, biz qanun layihəsini onlarla bir yerdə hazırlamışıq. Onların böyük əməyini də ayrıca qeyd etməyi özümə borc bilirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, İsa müəllim. Əgər başqa çıxış etmək istəyən yoxdursa, təklif var, birinci oxunuşda səsə qoyulsun. Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.26 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Bununla da iclasımız sona çatır.